DOI:10.30546/gdu.5.2025

UOT:94.

# TÜRKİYƏ VƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI: 1923-1932-Cİ İLLƏRDƏ İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN QURULMASI

***İsmayılov İsmayıl Akif oğlu***
***Tarix üzrə fəlsəfə doktoru, dosent (attestatsız)***
***Gəncə Dövlət Universiteti***
***ismayilov81@mail.ru | ismayil.ismayilov@gdu.edu.az***

**Xülasə:** *Bu məqalə 1923-1932-ci illər arasında Türkiyə Cümhuriyyəti ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin formalaşması prosesini araşdırır. Türkiyənin müstəqilliyini əldə etdiyi və yeni xarici siyasət strategiyalarını müəyyənləşdirdiyi bu dövrdə, ABŞ ilə diplomatik və iqtisadi əlaqələrin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Məqalədə, Atatürkün xarici siyasət prinsiplərinin ABŞ ilə münasibətlərə təsiri, həmçinin iki ölkə arasında ticarət və diplomatik əlaqələrin qarşılaşdığı çətinliklər və nailiyyətlər təhlil olunur. Eyni zamanda, dövrün beynəlxalq siyasi mühitinin və ABŞ-ın qlobal siyasətinin Türkiyə-ABŞ əlaqələrinə təsirləri qiymətləndirilir. Tədqiqat, erkən mərhələdə formalaşan bu münasibətlərin gələcəkdəki strateji əməkdaşlıq üçün zəmin yaratdığını vurğulayır.*

**Açar sözlər**: Türkiyə-ABŞ münasibətləri, ikitərəfli əlaqələr, Atatürkün xarici siyasəti, diplomatik əlaqələr, iqtisadi əməkdaşlıq, 1923-1932-ci illər, beynəlxalq siyasət

**Keywords:** Turkey-U.S. relations, bilateral relations, Atatürk's foreign policy, diplomatic relations, economic cooperation,1923-1932, international politics

**Ключевые слова**: Турецко-американские отношения, двусторонние связи, внешняя политика Ататюрка, дипломатические отношения, экономическое сотрудничество, 1923-1932 годы, международная политика

## GİRİŞ

Birinci Dünya Müharibəsindən sonra Osmanlı İmperiyasının süqutu ilə yaranan siyasi boşluq və beynəlxalq müstəvidə güc mübarizəsi fonunda Türkiyə Respublikası milli müstəqilliyini qorumaq və ərazi bütövlüyünü təmin etmək məqsədilə xarici siyasətini yenidən formalaşdırdı. Mustafa Kamal Atatürkün liderliyi altında qurulan yeni dövlət, beynəlxalq tanınma və iqtisadi inkişaf üçün xarici əlaqələrin qurulmasına xüsusi önəm verdi. Bu prosesdə Amerika Birləşmiş Ştatları ilə münasibətlər önəmli yer tutdu.

1923-cü ildə Türkiyə Respublikasının rəsmi şəkildə elan edilməsindən sonra ABŞ, yeni yaranan bu dövləti suveren və müstəqil bir ölkə kimi tanıdı və ikitərəfli əlaqələrin inkişafı üçün zəmin yaratmağa başladı. ABŞ-ın Türkiyəyə olan marağı həm siyasi, həm də iqtisadi sahədə qarşılıqlı fayda təmin etməyə yönəlmişdi. Bu illərdə Türkiyə ilə ABŞ arasında diplomatik nümayəndəliklər quruldu, ticarət əlaqələri genişləndi və iqtisadi əməkdaşlıq təşəbbüsləri ortaya çıxdı. ABŞ Türkiyəyə investisiyalar və texnoloji dəstək göstərməklə ölkənin modernləşmə prosesinə dolayısı ilə töhfə vermək istəyirdi.

Atatürkün xarici siyasətində önəmli yer tutan "Yurtda sülh, dünyada sülh" prinsipi, iki ölkə arasında münasibətlərin dostluq və əməkdaşlıq mühitində inkişaf etməsinə əsas oldu. Eyni zamanda, 1923-cü ildə imzalanan Lozanna Sülh Müqaviləsi ilə Türkiyənin yeni beynəlxalq statusu təsbit olundu və ABŞ ilə münasibətlərdə bu müqavilənin təmin etdiyi status-kvo qorundu. Bu, Türkiyənin suverenliyinə və ərazi bütövlüyünə qarşı hörmətin bir göstəricisi idi.

DOI:10.30546/gdu.5.2025

1923-1932-ci illər ərzində ABŞ və Türkiyə arasında iqtisadi əlaqələr tədricən dərinləşdi. Ticarət dövriyyəsinin artırılması, xüsusilə kənd təsərrüfatı məhsulları və sənaye malları sahəsində qarşılıqlı maraqlar əsas rol oynadı. Eyni zamanda, ABŞ-ın təklif etdiyi təhsil, texniki və iqtisadi yardım proqramları Türkiyənin modernləşmə hədəfləri ilə üst-üstə düşürdü. Bu əməkdaşlıq Türkiyənin həm daxili iqtisadi inkişafına, həm də beynəlxalq ticarətdə rəqabət qabiliyyətinin artırılmasına dəstək verdi.

**Tədqiqatın məqsədi:** Bu tədqiqatın məqsədi 1923-1932-ci illər arasında Türkiyə və Amerika Birləşmiş Ştatları arasındakı siyasi, iqtisadi və diplomatik münasibətlərin əsas xüsusiyyətlərini araşdırmaq və bu dövrdə qurulan əlaqələrin iki ölkənin xarici siyasətində oynadığı rolu müəyyən etməkdir.

**Tədqiqatın vəzifələri:** Bu tədqiqatın əsas vəzifəsi 1923-1932-ci illərdə Türkiyə və ABŞ arasında münasibətlərin formalaşma prosesini tarixi kontekstdə araşdırmaq və bu münasibətlərin hüquqi, siyasi və iqtisadi əsaslarını təhlil etməkdir. Atatürkün "yurdda sülh, dünyada sülh" prinsipinə əsaslanan xarici siyasət anlayışının bu münasibətlərə necə istiqamət verdiyi qiymətləndirilmişdir. Eyni zamanda, diplomatik və iqtisadi əlaqələrin inkişaf dinamikası və konkret əməkdaşlıq təşəbbüsləri müəyyənləşdirilmişdir. Tədqiqat həmçinin həmin dövrün beynəlxalq siyasi şəraitini, xüsusilə ABŞ-ın qitədənkənar siyasətini və Türkiyənin yeni mövqeyini nəzərə alaraq ikitərəfli münasibətlərin qarşılıqlı təsir mexanizmlərini təhlil etmişdir. Beləliklə, erkən dövrdə Türkiyə-ABŞ münasibətlərinin formalaşmasına təsir edən daxili və xarici amillər kompleks şəkildə qiymətləndirilmişdir.

**Metodoloji əsaslar:** Tədqiqatda əsasən tarixi sənədlər və arxiv materialları təhlil edilmiş, həmçinin dövrün mətbuatı və rəsmi hesabatlar əsasında keyfiyyətcə yanaşma tətbiq olunmuşdur. Müxtəlif mənbələrdən toplanan məlumatlar sistemli şəkildə analiz edilərək mövzunun ümumi mənzərəsi yaradılmışdır.

**1. Atatürk dövründə xarici siyasətin əsas prinsipləri.**

Mustafa Kamal Paşa Atatürk tərəfindən formalaşdırılan xarici siyasət, Türkiyənin milli müstəqilliyinə və ərazi bütövlüyünə hörmətin qorunmasını əsas prinsip kimi qəbul etmişdir. Atatürk bu prinsipi beynəlxalq münasibətlərdə dəyişməz bir xətt olaraq xarici dövlətlərə qarşı ardıcıl şəkildə irəli sürmüşdür. O, dövlətlərin bir-birinin daxili işlərinə qarışmaması və beynəlxalq münasibətlərdə bərabərlik hüququnun qorunması məsələsində qətiyyətli mövqe nümayiş etdirmiş, bu yanaşmanın sülh və qarşılıqlı hörmətə əsaslanan bir beynəlxalq sistemin bünövrəsi olduğunu vurğulamışdır [1, s. 45].

Atatürk dövrünün xarici siyasətində iki əsas istiqamət xüsusi əhəmiyyət daşıyırdı. Birinci istiqamət, Atatürkün “Yurdda sülh, cahanda sülh” (“Yurtda sülh, dünyada sülh”) prinsipidir. Bu prinsip ölkə daxilində sabitliyin təmin olunmasını və xarici siyasətdə qarşılıqlı anlaşma və dinc münasibətlərin qorunmasını əsas götürürdü. Bu yanaşma, Türkiyənin müharibədən yeni çıxmış bir ölkə olaraq beynəlxalq münasibətlərdə sabit və müstəqil mövqe tutmasını təmin etməyə xidmət edirdi [1, s. 46].

1920-ci illərin sonlarında ABŞ-ın Ankara səfirliyi tərəfindən Vaşinqtona göndərilən hesabatlarda da Türkiyənin xarici siyasətində sabitlik, neytrallıq və beynəlxalq hüquqa hörmətin ön planda olduğu qeyd edilmişdir. Bu sənədlərdə Atatürkün beynəlxalq münasibətlərdə sülh və dostluq siyasəti izlədiyi vurğulanmışdır [3, s. 800].

İkinci əsas istiqamət isə 1923-cü ildə imzalanan Lozanna Sülh Müqaviləsi ilə müəyyən olunmuş siyasi status-kvonun qorunması məqsədinə xidmət edən siyasətdir. Bu müqavilə Türkiyə Respublikasının beynəlxalq hüquq subyekti kimi tanınmasını və onun ərazi bütövlüyünün qəbulunu təmin etmişdir. Atatürkün xarici siyasətində Lozanna Müqaviləsi yalnız bir sülh razılaşması deyil, həm də Türkiyənin beynəlxalq münasibətlərdə suveren və

DOI:10.30546/gdu.5.2025

bərabərhüquqlu bir aktor kimi mövqeyinin təməl hüquqi və siyasi sənədi kimi qorunurdu [2, s. 51].

Mustafa Kamal Atatürk dövrü olaraq tanınan 1923-1938-ci illər, Türkiyə Cümhuriyyətinin xarici siyasət tarixində həm zaman baxımından, həm də məzmun baxımından iki əsas mərhələyə bölünə biləcək ardıcıl və məntiqli bir dövr təşkil edir. Bu dövr, Türkiyənin müstəqilliyini təmin etdikdən sonra beynəlxalq arenada öz yerini müəyyənləşdirmə və qoruma strategiyasını əks etdirir. Beləliklə, xarici siyasətin inkişafını daha yaxşı başa düşmək üçün 1923-1938-ci illər iki ayrı, lakin bir-biri ilə əlaqəli mərhələyə bölünür.

Birinci mərhələ (1923-1932) Türkiyənin yeni formalaşan dövlət kimi milli xarici siyasətin əsas prinsiplərinə uyğun olaraq fəaliyyət göstərdiyi dövrdür. Bu illərdə Türkiyə, 1923-cü ildə imzalanan Lozanna müqaviləsi ilə müəyyən edilən siyasi status-kvonun qorunması, habelə müqavilənin həll etmədiyi məsələlərin və yeni ortaya çıxan problemlərin sülhsevər, lakin fəal xarici siyasət vasitəsilə həllinə yönəlmişdir. Bu mərhələ, həmçinin Türkiyənin milli maraqlarını qorumağa və beynəlxalq arenada mövqeyini möhkəmləndirməyə çalışdığı dövrdür. Dövrün Türkiyə və ABŞ arxiv sənədləri göstərir ki, Atatürkün xarici siyasəti, əsasən, qarşılıqlı hörmət və bərabərhüquqlu əlaqələrə əsaslanırdı; ABŞ diplomatları da Türkiyənin bu dövrdə neytrallıq siyasətini və regional sabitliyi prioritet saydığını qeyd etmişdir [1, s. 102; 3, s. 763].

İkinci mərhələ (1932-1938) isə daha mürəkkəb beynəlxalq mühitdə Türkiyənin regional və qlobal sülhə töhfə verdiyi, həmçinin ikitərəfli və çoxtərəfli beynəlxalq münasibətlərdə fəal rol oynadığı dövrdür. Bu mərhələdə Türkiyə, Lozanna müqaviləsindən qaynaqlanan qalan məsələləri əsasən həll etmiş və xarici siyasətini yalnız milli maraqlara deyil, həm də beynəlxalq əməkdaşlıq və sülhün qorunmasına yönəltmişdir. ABŞ arxivləri bu dövrdə Türkiyənin beynəlxalq təşkilatlara üzvlüyü və sülhə xidmət edən diplomatik fəaliyyətlərinin ABŞ tərəfindən diqqətlə izlənildiyini göstərir [2, s. 218; 4, s. 1250]. Bu isə Türkiyənin sülhsevər xarici siyasət strategiyasının beynəlxalq səviyyədə tanınmasına səbəb olmuşdur.

Lakin, qeyd etməliyik ki, Mustafa Kamal Atatürk, hələ Anadoluda Milli Mübarizə apararkən, İstanbul hökumətindən fərqli olaraq həm daxili, həm də xarici siyasətdə milli maraqlara əsaslanan müstəqil bir yol tutmuşdu. Bu, yeni formalaşan Türkiyə dövləti üçün də, həyati əhəmiyyət kəsb edirdi. Çünki bölgədə güc balansı pozulmuş, imperialist dövlətlər arasında sərt rəqabət hökm sürürdü. Xüsusilə İngiltərə, Osmanlı imperiyasının dağılmasından sonra yeni yaranan Türkiyə üzərində təsirini saxlamaq üçün siyasi və diplomatik təzyiqlərini davam etdirirdi. İngiltərə 1923-cü ildə imzalanan Lozanna Sülh Müqaviləsini böyük istəksizliklə qəbul etmiş, bu sənədi imperiyanın maraqlarına zidd bir məğlubiyyət kimi qiymətləndirmişdi. İngiltərə müttəfiqlərini günahlandırsalar da, əslində böyük geosiyasi məğlubiyyətlə üzləşmişdi və diplomatik vasitələrlə Türkiyənin mövqeyini zəiflətmək istəmişdi [5, s. 134-138].

Atatürk milli suverenliyin qorunmasını əsas prinsip kimi qəbul edərək, beynəlxalq hüququn bərabərhüquqlu prinsiplərinə sadiq qalmışdır. O, dövlətlərin daxili işlərinə qarışmamaq və sülhü təmin etmək strategiyasını seçmiş, bununla da Türkiyənin regional və beynəlxalq səviyyədə sabit və etibarlı bir aktor kimi tanınmasına nail olmuşdur [6, s. 70-80].

Bu dövrdə ABŞ da Türkiyənin müstəqil xarici siyasətinə diqqətlə yanaşırdı. ABŞ diplomatik arxivlərindəki materiallar göstərir ki, Vaşinqton Türkiyənin regional sülh və stabilliyə verdiyi töhfələri müsbət qiymətləndirir və İngiltərənin Türkiyəyə qarşı təsir cəhdlərini izləyirdi. ABŞ üçün Türkiyə strateji əhəmiyyət kəsb edən körpü ölkə idi və buna görə də, Atatürkün müstəqil siyasətini dəstəkləyərək ikitərəfli münasibətləri inkişaf etdirməyə başladı [7, s. 523-526].

DOI:10.30546/gdu.5.2025

Digər tərəfdən, Sovet İttifaqı da Türkiyə ilə münasibətlərində balans siyasəti aparırdı. Sovetlər, Osmanlı imperiyasının dağılmasından sonra bölgədə nüfuz qazanmaq istəyir və Türkiyə ilə diplomatik əlaqələri önəmli sayırdı. Atatürkün "Yurdda sülh, cihanda sülh" şüarı Sovetlər üçün də maraqlı idi, çünki onlar regionda gərginliyin azalmasını istəyirdilər. 1921-ci ildə imzalanan Moskva və Kars müqavilələri iki ölkə arasında sərhədləri müəyyənləşdirərək qarşılıqlı təhlükəsizlik zəmanəti verdi. Bu müqavilələr Atatürkün Sovet İttifaqı ilə sülh və əməkdaşlıq siyasətinin təzahürü idi [8, s. 45-50; 9, s. 22-40].

Sovet İttifaqı dövrün xarici siyasətində Türkiyəyə qarşı təzyiq vasitəsindən çox, strateji tərəfdaşlıq kimi yanaşırdı. Bu, Qərb imperializminə qarşı ortaq maraqların mövcud olduğu şəraitdə xüsusilə önəmli idi. Lakin Sovetlər də Türkiyənin müstəqil və milli siyasətini tanımaqla yanaşı, öz geosiyasi maraqlarını qoruyurdu [10, s. 110-115].

Beləliklə, Atatürkün xarici siyasət strategiyası yalnız İngiltərə və digər imperialist güclərin təzyiqlərinə qarşı dayanmaqla kifayətlənmədi, həm də ABŞ və Sovet İttifaqı ilə mürəkkəb, balanslaşdırılmış münasibətlər qurmağa imkan verdi. Bu diplomatik manevrlər Türkiyənin beynəlxalq arenada mövqeyini gücləndirdi və müstəqil xarici siyasət yolunun davamlılığını təmin etdi.

İngiltərə, 1923-cü ildə Lozanna Sülh Müqaviləsinin imzalanmasından sonra Türkiyənin beynəlxalq arenada artan nüfuzundan ciddi narahatlıq hiss edirdi. Bu narahatlıq əsasən, Türkiyənin müstəqil və aktiv xarici siyasət yürütməsi, yeni qurulan respublikanın regional və qlobal səviyyədə öz mövqeyini gücləndirməsi ilə bağlı idi. İngilis hökuməti, xüsusilə Osmanlı İmperiyasının çöküşündən sonra itirdiyi strateji mövqeləri geri qaytarmaq və Türkiyəni öz təsir dairəsində saxlamaq üçün müxtəlif vasitələrə əl atmışdır. Bu çərçivədə, İngiltərə diplomatiyası Türkiyənin xarici əlaqələrini nəzarətdə saxlamaq və onun qərarvermə prosesinə təsir etmək məqsədilə diplomatik təzyiqlərdən istifadə etmiş, həmçinin yerli və beynəlxalq mediada Türkiyənin xarici siyasətini zəiflətmək üçün təbliğat aparmışdır [5, s. 18-38].

Bununla belə, Türkiyə, Qazi Mustafa Kamal Atatürkün rəhbərliyi altında, Lozanna müqaviləsinin verdiyi hüquqi əsaslardan və milli suverenlik prinsiplərindən möhkəm yapışaraq, xarici siyasətini suverenlik və müstəqillik çərçivəsində qurmağa davam etmişdir. ABŞ arxivlərindəki materiallara əsasən deyə bilərik ki, Vaşinqton Türkiyənin bu müstəqil xarici siyasət yanaşmasını diqqətlə izləyir və Türkiyənin regional stabillikdə oynadığı rolu yüksək qiymətləndirirdi. Amerika diplomatları, xüsusilə 1920-1930-cu illərdə Türkiyə ilə ikitərəfli əlaqələri inkişaf etdirmək üçün səy göstərir, eyni zamanda İngiltərənin Türkiyəyə təsir etmə cəhdlərini diqqətlə müşahidə edirdi [7, s. 425-430].

Bu dövrdə ABŞ, Türkiyənin Qərb dünyası ilə əlaqələrinin genişlənməsində və beynəlxalq təşkilatlara inteqrasiyasında mühüm dəstək verirdi. ABŞ-ın bu siyasəti, həm Sovet İttifaqının regiondakı təsirini balanslaşdırmaq, həm də Türkiyəni mümkün strateji tərəfdaş kimi qorumaq məqsədini güdürdü. Eyni zamanda, İngiltərə ilə ABŞ arasında Türkiyənin gələcəyi və xarici siyasət istiqamətləri barədə diplomatik rəqabət müşahidə olunurdu [9, s. 310-320].

Həmçinin, İngiltərənin təsir dairəsini genişləndirmək cəhdlərinə qarşı Türkiyə müstəqilliyini və milli maraqlarını qoruyaraq, həm Avropa, həm də Amerika gücləri arasında balanslı bir diplomatik siyasət yürütmüşdür. Bu siyasət Türkiyənin beynəlxalq arenada nüfuzunun artmasına və müstəqil xarici siyasət prinsiplərinin möhkəmlənməsinə şərait yaratmışdır.

Mustafa Kamal Atatürk xarici siyasətdə əsas prioritet kimi Qərb dövlətləri ilə balanslı və bərabərhüquqlu münasibətlərin qurulmasını görürdü. Onun baxışına görə, Türkiyə yalnız coğrafi mövqeyinə görə deyil, həm də mədəni və siyasi baxımdan Qərb sivilizasiyasının tam hüquqlu üzvü olmalı idi. Bu məqsədlə Atatürk, Türkiyənin modernləşməsi və yenidən

DOI:10.30546/gdu.5.2025

qurulması prosesində Qərb ölkələrinin sosial, siyasi, iqtisadi və hüquqi modellərini öyrənməyə, qəbul etməyə və tətbiq etməyə xüsusi önəm vermişdir [6, s. 235-240].

Atatürkün xarici siyasət konsepsiyasında əsas məqamlardan birincisi, milli müstəqillik və suverenliyin qorunması idi. O, hesab edirdi ki, Türkiyənin Qərbə inteqrasiyası heç vaxt milli müstəqillik və dövlət suverenliyinin itirilməsi ilə nəticələnməməlidir [11, s. 78-82]. Əksinə, bu proses, dövlətin öz milli maraqlarına və suveren hüquqlarına sadiq qalması ilə müşayiət olunmalıdır. Bu prinsip Atatürkün xarici siyasətində “müstəqil və müvazinətli siyasət” kimi xarakterizə edilir ki, bu da həm Qərb, həm də digər güc mərkəzləri ilə münasibətlərin balanslaşdırılması anlamına gəlirdi [12, s. 45-50].

Xarici siyasətdə Atatürk rasional və realist yanaşmaya üstünlük vermiş, Türkiyənin beynəlxalq arenada güclü, müstəqil və dayanıqlı bir aktor kimi mövqeyini qorumağı əsas məqsəd kimi müəyyənləşdirmişdir. Bu yanaşma, diplomatik əlaqələrin qurulmasında Türkiyənin tarixi təcrübələrindən, beynəlxalq qanunlardan və regiondakı balanslardan yararlanaraq, ölkənin maraqlarına uyğun siyasət yürütmək prinsipi ilə bağlı idi [13, s. 162-168].

ABŞ arxiv materiallarında da Atatürkün bu siyasətə olan sadiqliyi və ABŞ ilə münasibətlərin inkişaf etdirilməsi istiqamətində atdığı addımlar geniş əksini tapmışdır. ABŞ Dövlət Departamentinin 1920-1930-cu illər arxiv sənədlərində Türkiyənin Qərb dövlətləri, xüsusilə də Amerika ilə bərabərhüquqlu və dost münasibətlər qurmaq istəyi açıq şəkildə qeyd olunmuşdur [14, Sənəd No. 320-25]. Bu münasibətlərdə Atatürk Türkiyənin suverenliyinin qorunması və milli maraqlarının üstün tutulması mövqeyindən geri çəkilməmişdir [15, s. 611-620]. ABŞ diplomatlarının yazışmalarında tez-tez qeyd olunurdu ki, Türkiyənin siyasəti nə Qərbdən asılılıq, nə də Şərqə yaxınlıq üzərində qurulurdu - bu, Atatürkün “hər iki blokla məsafəli və bərabərhüquqlu əlaqə” prinsipinin praktikaya tətbiqi idi [16, s. 205-210].

Atatürk dövrünün xarici siyasəti, xüsusilə 1923-cü ildə imzalanmış Lozanna Sülh Müqaviləsindən sonra ortaya çıxan siyasi, hüquqi və iqtisadi problemlərin mərhələli şəkildə və sülhsevər vasitələrlə həllinə yönəlmişdi. Lozanna Müqaviləsi ilə Türkiyə beynəlxalq hüquq baxımından öz müstəqilliyini rəsmiləşdirmiş olsa da, müqavilənin icrası prosesi müəyyən çətinliklərlə müşayiət olunurdu. Bu dövrdə Atatürkün rəhbərliyi ilə formalaşan xarici siyasət, status-kvonu qorumağı, yəni Lozanna ilə təsbit edilmiş sərhədlərin və beynəlxalq hüquqi mövqelərin müdafiəsini əsas hədəf olaraq müəyyənləşdirdi [17, s. 98-102].

Bu kontekstdə Türkiyə, xarici siyasətində əsasən “sabitlik və barış” prinsipinə istinad etmişdir. Ankara, Lozanna sonrası dönəmdə münaqişələrdən yayınmaq və beynəlxalq sistemdə güvənli tərəfdaş kimi tanınmaq məqsədilə həm ikitərəfli, həm də çoxtərəfli diplomatik münasibətlərə xüsusi önəm vermişdir. Türkiyə hökuməti, beynəlxalq münasibətlərdə mötədil və dialoq yönümlü mövqe tutaraq, həm regional sabitlik, həm də beynəlxalq hörmət baxımından ciddi qazanclar əldə etmişdir [18, s. 211-218].

Atatürk dövründə yürüdülən bu rasional xarici siyasət sayəsində Türkiyə, bir tərəfdən Qərb dövlətləri ilə, xüsusilə Fransa, Böyük Britaniya və İtaliya ilə münasibətlərini sabitləşdirmiş, digər tərəfdən isə Sovet İttifaqı ilə ideoloji fərqliliklərə baxmayaraq konstruktiv əlaqələr qurmağa nail olmuşdur. Bu balanslı siyasət, 1930-cu illərdə Türkiyənin həm Balkan Antantı (1934), həm də Səadət Paktı (1937) kimi regional təhlükəsizlik təşəbbüslərində fəal iştirakına şərait yaratmışdı. Bu ittifaqlar vasitəsilə Türkiyə, qonşuları ilə dostluq münasibətləri qurmaqla yanaşı, öz suverenliyini və sərhədlərini beynəlxalq mexanizmlərlə təminat altına almağa çalışmışdır [19, s. 134-139].

Digər tərəfdən, ABŞ Dövlət Departamentinin 1920-30-cu illər arxiv sənədlərində Türkiyənin çoxtərəfli diplomatik strategiyası, xüsusilə də Avropa gücləri və Sovet İttifaqı arasında tarazlıq yaratmaq səyləri açıq şəkildə qeyd olunmuşdur. ABŞ diplomatları

DOI:10.30546/gdu.5.2025

Türkiyənin regional diplomatiyada rolunu artırmasından və sülh yönümlü mövqeyindən müsbət bəhs edir, xüsusilə 1930-cu illərdə Balkanlarda və Yaxın Şərqdə Ankara diplomatiyasının artan nüfuzuna diqqət çəkirlər [20, Qutu 15, Qov. 4].

ABŞ Dövlət Departamentinin 1920–1930-cu illərə aid arxiv sənədlərində də bu siyasətin konturları aydın şəkildə görünməkdədir. ABŞ diplomatları Atatürkün xarici siyasətini realist və proqmatik olaraq qiymətləndirmiş, onu regionda sabitlik və hüquqi sistemə bağlılıq yönündən nümunəvi lider hesab etmişlər. 1929-cu ilə aid bir diplomatik raportda Atatürkün "hər hansı bir gücün təsiri altına düşmədən, lakin beynəlxalq sistemlə inteqrasiya olmağa çalışan müasir lider" olduğu bildirilmişdir [21, Qutu 12, Qov. 6].

Bütün bu siyasətlər nəticəsində Atatürk dövrünün xarici siyasəti, Türkiyənin beynəlxalq arenada etibarlı, suveren və sabit bir dövlət kimi qəbul edilməsinə mühüm töhfələr vermişdir. Türkiyə bu dövrdə hərbi müdaxilədən uzaq, hüquq əsaslı və müstəqil xarici siyasət modeli ilə həm Qərbdə, həm də Şərqdə sayğı qazanmışdır. Bu yanaşmanın nəticəsi olaraq, Türkiyə 1930-cu illərin sonuna qədər regionda hərbi münaqişələrdən uzaq durmağı bacarmış, suverenlik və milli maraqlardan kənara çıxmadan beynəlxalq sistemdə hörmət qazanmışdır. Atatürkün miras qoyduğu bu xarici siyasət fəlsəfəsi, sonrakı dövrlərdə də Türkiyə diplomatiyasına istiqamət verən əsas prinsip kimi dəyərləndirilmişdir.

**2. Lozanna sonrası münasibətlər və diplomatik əlaqələrin bərpası**

XX əsrin əvvəllərində Osmanlı İmperiyasının çöküşü və Türkiyə Cümhuriyyətinin yaranması ilə bölgədə yeni siyasi və iqtisadi reallıqlar formalaşdı. Bu dönüşüm təkcə regional deyil, həm də beynəlxalq münasibətlər sistemində əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Türkiyə Cümhuriyyətinin ilk illərində, Mustafa Kamal Atatürkün rəhbərliyi altında həyata keçirilən dünya və qərbləşmə yönümlü islahatlar, ABŞ-da müəyyən çaşqınlıq və ehtiyatla qarşılanmışdır. Buna baxmayaraq, ABŞ Türkiyənin Avropa və Asiyanın kəsişdiyi strateji coğrafi mövqeyini yüksək qiymətləndirirdi. Bu mövqe, Birinci Dünya Müharibəsindən sonra yaranan yeni qlobal siyasi kontekstdə regional sabitlik baxımından Türkiyənin önəmini artırmışdır.

ABŞ, bu qlobal dəyişikliklər fonunda öz xarici siyasətini yenidən müəyyənləşdirmək məcburiyyətində qaldı. Belə ki, Birinci Dünya Müharibəsindən sonra beynəlxalq güc balansında əsaslı dəyişikliklər baş vermiş və bu şəraitdə ABŞ, İngiltərə və Fransanın ənənəvi imperialist siyasətlərinə alternativ olaraq qlobal miqyasda nüfuzunu artırmaq üçün əlverişli imkanlar əldə etmişdi. Lakin 1920-ci illərdə ABŞ-ın xarici siyasəti əsasən izolyasionist (təcridçi) mövqe ilə səciyyələnirdi. Vaşinqton administrasiyası Avropa məsələlərindən və çoxtərəfli ittifaqlardan uzaq durmağa üstünlük verərək daha çox daxili sabitlik və iqtisadi inkişafı prioritet elan edirdi.

Bu izolyasionist yanaşma ABŞ-ın Türkiyə ilə münasibətlərində də ehtiyatlı və praqmatik mövqe tutmasına səbəb olmuşdur. ABŞ, yeni yaranmış Türkiyə Cümhuriyyəti ilə əlaqələrdə strateji maraqları qorumağa çalışsa da, münasibətlərin inkişafında daha çox iqtisadi və hüquqi zəminlərin formalaşmasına önəm verirdi. Türkiyə ilə ABŞ arasında münasibətlərin qurulması, iki ölkənin iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlıq potensialının inkişaf etdirilməsi baxımından önəmli mərhələ oldu.

İngiltərənin mövqeyinin artıq açıq-aşkar məlum olması Türkiyənin xarici siyasətində alternativ partnyor axtarışlarını zəruri etmişdir. Bu çərçivədə xarici siyasətin əsas istiqaməti getdikcə daha çox ABŞ-a yönəlməyə başlamışdır. Qeyd etmək lazımdır ki, ABŞ Türkiyə Respublikasını tanıyan ilk dövlətlərdən biri olmuşdur ki, bu da ikitərəfli münasibətlərin başlanması baxımından mühüm əhəmiyyət kəsb edirdi [22, s. 852-854]. Tanınma aktı iki ölkə arasında diplomatik münasibətlərin qurulmasına və sonrakı mərhələdə siyasi və iqtisadi əməkdaşlığın inkişafına zəmin yaratmışdır.

DOI:10.30546/gdu.5.2025

Türkiyə Cümhuriyyəti, Lozanna Müqaviləsində müəyyən olunmuş prinsip və öhdəliklərə sadiq qalaraq beynəlxalq hüquq normalarına əsaslanan münasibətlər qurmağa və ABŞ ilə əlaqələrini normallaşdırmağa çalışmışdır. Bu proses qarşılıqlı bərabərlik prinsipinə söykənən əməkdaşlıq mühitinin formalaşdırılmasına xidmət etmişdir [23, s. 12-14; 24, s. 272]. Bununla yanaşı, Türkiyə bölgədə sülh və sabitliyi təmin etmək, qonşu ölkələrlə dostluq münasibətlərini möhkəmləndirmək və daxili siyasi sabitliyi qorumaq məqsədilə mühüm addımlar atmışdır.

Bütün bu inkişaflar fonunda Türkiyə-ABŞ münasibətləri qarşılıqlı hörmət və diplomatik maraqlar çərçivəsində formalaşaraq yalnız siyasi dialoqla məhdudlaşmamış, eyni zamanda iqtisadi və mədəni əməkdaşlıq üçün də əlverişli zəmin yaratmışdır [25, s. 119-123; 26, Sənəd, 867.00/126]. ABŞ bu kontekstdə Türkiyə ilə Osmanlı İmperiyasının borcları, Amerika vətəndaşlarının və şirkətlərinin Türkiyədəki hüquqları kimi xüsusi məsələləri tənzimləyə çalışdı [24, s. 45-47; 27, s. 98-100]. Bu, ABŞ ilə münasibətlərin yenidən qurulması üçün əsas yaratdı. Lakin Lozanna Müqaviləsinin ratifikasiyası ABŞ Senatı tərəfindən təsdiqlənmədi və bu, iki ölkə arasında rəsmi diplomatik münasibətlərin qurulmasına mane oldu [28, s. 45-47]. Çünki, 6 avqust 1923-cü ildə Lozannada imzalanmış "Türk-Amerikan Dostluq və Ticarət Müqaviləsi" (Treaty of Amity and Commerce between the United States and Turkey) iki ölkə arasında diplomatik münasibətlərin qurulması baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Bu müqavilə, Lozanna Konfransında paralel danışıqlar nəticəsində razılaşdırılmış və ABŞ nümayəndə heyəti ilə Türkiyə hökuməti arasında tərtib edilmişdi. Müqavilənin məqsədi ticarət, konsulluq hüquqları və qarşılıqlı diplomatik tanınma kimi əsas prinsipləri tənzimləmək idi. 1923-1929-cu illərdə hakimiyyətdə olan Kalvin Kulic (Calvin Coolidge) administrasiyası müqavilənin ratifikasiyasını dəstəkləsə də, 3 may 1924, 21 fevral 1925 və 18 yanvar 1927 tarixlərində ABŞ Senatına təqdim edilən sənəd üçdə iki səs çoxluğunu əldə edə bilmədiyindən ratifikasiya edilmədi [24, s. 77-79; 25, s. 110-113]. Senatın müqaviləni rədd etməsinin əsas səbəbləri arasında kapitulyasiyaların ləğvi, əcnəbilərin hüquq sisteminə inteqrasiyası və Türkiyənin hüquqi suverenliyini tanımaqda yaranan tərəddüdlər dururdu. ABŞ-ın bir sıra senatorları, xüsusilə də izolyasionist mövqedə olanlar, Türkiyədəki hüquqi və iqtisadi dəyişikliklərin ABŞ vətəndaşlarının maraqlarına uyğun olmadığını iddia edirdilər [23, s. 231-234; 29].

Bu dövrdə, ABŞ ictimaiyyətində Türkiyəyə qarşı mənfi ictimai rəyin formalaşdırılması istiqamətində aparılan kampaniyalar, ikitərəfli münasibətlərin inkişafına əngəl törədən mühüm amillərdən biri olmuşdur. Xüsusilə, ABŞ-ın keçmiş Osmanlı səfiri Henri Morqentau Cerrardın (Henry Morgenthau Jerard) təşəbbüsü ilə Amerika mətbuatında Türkiyə əleyhinə genişmiqyaslı təbliğat kampaniyası başlamışdır. Morqentau özünün əvvəlki vəzifə dövründəki təəssüratlarına və şəxsi yanaşmalarına əsaslanaraq Osmanlı dövründə baş vermiş hadisələri, o cümlədən erməni məsələsini manipulyasiya edərək ABŞ ictimaiyyətində Türkiyəyə qarşı qərəzli münasibət formalaşdırmağa çalışmışdır [25, s. 102-104].

Bu kampaniyanın başlıca məqsədi Lozanna Müqaviləsinin ratifikasiyasına qarşı ictimai və siyasi təzyiq yaratmaq, eyni zamanda erməni lobbisinin maraqlarını qorumaq olmuşdur. Morqentau, öz çıxışlarında və mətbuata verdiyi müsahibələrdə Osmanlı İmperiyasının müharibə illərində həyata keçirdiyi siyasətləri birtərəfli təqdim edir, erməni məsələsini siyasi alətə çevirərək yeni Türkiyə Cümhuriyyətinin beynəlxalq legitimliyini şübhə altına almağa cəhd göstərirdi [26, Sənəd, 867.00/152; 29, s. 421].

Bundan əlavə, bu kampaniya Amerikanın protestant missioner dairələrinin və erməni diaspor təşkilatlarının da aktiv dəstəyi ilə genişlənmiş, Senat daxilində Türkiyə ilə diplomatik və ticarət münasibətlərinə qarşı çıxan qanunvericilərin fəaliyyətinə ideoloji zəmin yaratmışdır. Beləliklə, bu dövr, ABŞ ictimaiyyətində Türkiyə ilə əlaqələrin inkişafına dair ziddiyyətli

DOI:10.30546/gdu.5.2025

baxışların formalaşdığı, diplomatik təşəbbüslərin isə daxili siyasi təzyiqlər nəticəsində ləngidiyi bir mərhələ kimi xarakterizə olunur [30, s. 50; 31, s. 134-136].

Xüsusilə ABŞ-da protestant missioner dairələrinin təsiri, erməni diasporasının lobbi fəaliyyəti və Lozanna Müqaviləsinə qarşı yönəlmiş siyasi kampaniyalar müqavilənin Senat tərəfindən ratifikasiyasına ciddi şəkildə mane olmuşdur. Bu dövrdə Türkiyə əleyhinə formalaşmış ictimai rəyin və siyasi təzyiqin əsas mənbələrindən biri, erməni məsələsi və ABŞ-da fəallıq göstərən erməni lobbi təşkilatları olmuşdur. 1920-ci illərin ortalarında "Lozanna Müqaviləsinə Müxalif Amerika Komitəsi" (American Committee Opposed to the Lausanne Treaty -ACOLT) adı altında fəaliyyət göstərən bu qurumlar arasında "American Committee for the Independence of Armenia" (ACIA) da mühüm yer tuturdu [25 s. 49-50].

Bu təşkilatlar, ABŞ Senatına geniş miqyaslı məktub kampaniyaları, qəzetlərdə anti-Türkiyə məqalələri və konqres üzvləri üzərində lobbi təzyiqləri vasitəsilə təsir göstərirdilər. Nyu York ştatının Yuta şəhərindən olan senator Uilyam Henri Kinq (William Henry King), bu lobbi qruplarının dəstəyi ilə müqavilənin ratifikasiyasına qarşı çıxan ən fəal simalardan biri olmuşdur. Senator Kinq və ona yaxın olan siyasi çevrələr Lozanna Müqaviləsini Osmanlı dövründəki "mədəni və dini imtiyazların" ləğvi kimi qiymətləndirir və bu dəyişiklikləri "Amerikanın tarixi maraqlarına zərbə" kimi təqdim edirdilər [31, s. 233-235]. Müqavilənin əleyhdarlarının arqumentləri əsasən üç istiqamətdə cəmlənirdi:

1. Diplomatik güzəştlərin qeyri-bərabərliyi: Onların fikrincə, ABŞ Dövlət Departamenti və Lozannadakı nümayəndəsi Con Griyu (John Grew), danışıqlar zamanı Türkiyəyə qarşı kifayət qədər sərt mövqe nümayiş etdirməmiş, xüsusilə kapitulyasiyaların ləğvi məsələsində Amerikanın mövcud hüquqi imtiyazlarını qurban vermişdir [22, s. 851-854].

2. Azlıqların hüquqları ilə bağlı narahatlıqlar: Müxaliflər, müqavilənin xristian azlıqların hüquqlarını və təhlükəsizliyini təmin etməyəcəyi qənaətində idilər. Əsas hədəf erməni və yunan azlıqların vəziyyətinin beynəlxalq nəzarətdə saxlanması idi. Bu isə bir növ 1914 öncəsi protektorat sisteminə qayıdış istəyi kimi qiymətləndirilə bilər [24, s. 49].

3. İqtisadi maraqların üstün tutulması və missiyaların bağlanması təhlükəsi: Qarşı tərəf iddia edirdi ki, ABŞ hökuməti və onun diplomatik nümayəndələri Anadolu ərazisində fəaliyyət göstərən missioner məktəblərin və xəstəxanaların bağlanması bahasına iqtisadi maraqların qorunmasına üstünlük vermişlər. Bu, xüsusilə Near East Relief və digər protestant təşkilatların narahatlığına səbəb olmuşdu [32, Fond Kodu: 030.10.0.0/72.401.6].

Beləliklə, bu hadisələr, iki ölkə arasında rəsmi diplomatik münasibətlərin qurulmasına əngəl yaratdı və qarşılıqlı əlaqələrin inkişafını müəyyən müddət ləngitdi. Türkiyə isə bu gecikməni suverenlik prinsiplərinə zidd bir yanaşma kimi qiymətləndirmiş və ABŞ-la münasibətlərin bərabər hüquqlar çərçivəsində qurulması üçün israrçı olmuşdur [33, Fond kodu: 030.10.0.0/72.401.2].

Mustafa Kamal Atatürk, bu təbliğat fəaliyyətlərinə qarşı yalnız diplomatik vasitələrlə deyil, eyni zamanda milli informasiya siyasəti çərçivəsində strateji cavab verilməsinin vacibliyini vurğuladı. Bu məqsədlə, Türk mətbuatına xüsusi direktivlər verildi və rəsmi səviyyədə mövqe bildirilməsi üçün ictimai diplomatiya kanalları aktivləşdirildi [25, s. 112-113].

Bu kontekstdə Ahmet Ağaoğlu tərəfindən 1928-ci ildə yazılmış və ABŞ ictimaiyyətinə ünvanlanmış cavab məqaləsi xüsusilə diqqətəlayiqdir. Ağaoğlu, erməni soyqırımı iddialarına qarşı polemik arqumentlər irəli sürərək, ABŞ ictimaiyyətinə və siyasi dairələrinə öz tarixi ilə üzləşməyi tövsiyə etmişdir. Məqaləsində o, ABŞ tarixindəki irqçilik siyasəti, xüsusilə zəncilərə (African-Americans) və yerli Amerika əhalisinə (Native Americans, "qırmızı dərililər") qarşı həyata keçirilmiş sistematik ayrı-seçkilik və zorakılıqları xatırlatmış, bu

DOI:10.30546/gdu.5.2025

nümunələr üzərindən ABŞ-ın insan hüquqları sahəsindəki ikili standartlarını tənqid etmişdir [34, s. 53].

Ağaoğlu, bu yolla amerikalı oxucuya etik konsistensiyanın (əxlaqi ardıcıllığın) vacibliyini xatırladırdı. Onun vurğuladığı əsas fikir bu idi ki, başqa xalqların tarixini birtərəfli və siyasi məqsədlərlə qiymətləndirmək əvəzinə, öz tarixindəki haqsızlıqlarla da üzləşmək lazımdır. Ağaoğlu eyni zamanda ABŞ-ın rəsmi qurumlarını və media strukturlarını erməni iddialarını qeyri-obyektiv və siyasi məqsədli şəkildə yaymaqdan çəkinməyə çağırmış və obyektiv araşdırma və qarşılıqlı anlaşmaya əsaslanan münasibətlərin təşviq edilməsinin vacibliyini bildirmişdir [35, Sənəd, 867.00/145].

Bu məqalə, təkcə mətbu açıqlama deyil, həm də Türkiyənin informasiya siyasəti kontekstində strateji əhəmiyyətə malik ictimai diplomatiya addımı idi. Ağaoğlunun yazısı, o dövrün siyasi təbliğatına qarşı Türkiyə tərəfindən verilən mədəni və intellektual səviyyəli bir cavab nümunəsi kimi qiymətləndirilə bilər.

Bu hadisə, dövrün Türkiyə-ABŞ münasibətlərində yalnız rəsmi diplomatik əlaqələrin deyil, həm də informasiya müharibəsinin və ictimai diplomatiyanın əhəmiyyətli rol oynadığını göstərir. Eyni zamanda, Türkiyənin milli maraqlarını beynəlxalq səviyyədə müdafiə etmək üçün daxili media resurslarından istifadə etməsi, Atatürk dövrünün xarici siyasət strategiyasında mühüm yer tutmuşdur.

Türkiyə hökuməti kapitulyasiyaların ləğvini milli suverenlik uğrunda əhəmiyyətli addım kimi qiymətləndirirdi və bu məsələ ABŞ-Türkiyə münasibətlərində davamlı müzakirə mövzusu oldu [24, s. 103-105]. ABŞ isə Türkiyədəki yeni hökumətin xarici siyasətini diqqətlə izləyir, lakin iqtisadi və siyasi maraqların ziddiyyətləri münasibətlərin yavaş inkişafına səbəb olurdu [25, s. 218-220]. Bu dövrdə ABŞ-ın Türkiyəyə münasibəti müstəqilliyin və yeni nizamın tanınması istiqamətində sınaq mərhələsi idi.

Nəticədə, ABŞ Senatı 18 yanvar 1927-ci il tarixli sessiyada müqaviləni yenidən rədd etdikdən sonra, vəziyyət diplomatik gərginlik mərhələsinə keçmişdi. ABŞ Dövlət Katibi Frank Billinqs Keloq (Frank Billings Kellogg), İstanbulda olan Admiral Mark Lambert Bristıl (Admiral Mark Lambert Bristol) təcili teleqram göndərərək Ankaraya səfər etməsini və Türkiyənin Xarici İşlər Naziri Tevfik Rüştü Aras ilə vəziyyəti qiymətləndirən danışıqlara başlamasını istədi [26, Sənəd, 867.00/129].

ABŞ Senatının 18 yanvar 1927-ci il tarixində Türkiyə ilə imzalanmış Dostluq və Ticarət Müqaviləsini ratifikasiya etməməsi diplomatik baxımdan gərginlik yaratmış, lakin bu addım münasibətlərin tamamilə kəsilməsi ilə nəticələnməmişdir. Əksinə, yaranmış boşluğu doldurmaq və münasibətləri normallaşdırmaq məqsədilə ABŞ administrasiyası tez bir zamanda yeni diplomatik təşəbbüslər irəli sürdü. Bu çərçivədə, Admiral Mark Lambert Bristıl, ABŞ-ın Türkiyədəki qeyri-rəsmi nümayəndəsi olaraq 20 yanvar 1927-ci il tarixində Ankaraya gəldi və burada Xarici İşlər Naziri Tevfik Rüştü Aras ilə yüksək səviyyəli danışıqlar apardı [25, s. 110-111].

Görüş zamanı Admiral Bristıl, ABŞ Senatının müqaviləni rədd etməsinin düşmənçilik və ya Türkiyəyə qarşı siyasi qarşıdurma niyyəti daşımadığını, əksinə iki ölkə arasında dostluq əlaqələrinin qorunub saxlanılmasına dair güclü istək mövcud olduğunu vurğuladı. Onun mesajı açıq idi: ABŞ hökuməti, Senatın qərarından asılı olmayaraq, Türkiyə ilə münasibətləri inkişaf etdirməkdə maraqlıdır [26, Sənəd, 867.00/130].

Bu diplomatik dialoqun nəticəsi olaraq, 17 fevral 1927-ci il tarixində Ankara və Vaşinqton arasında qarşılıqlı nota mübadiləsi yolu ilə diplomatik münasibətlərin yenidən qurulması barədə razılıq əldə olundu. Bu razılaşma klassik beynəlxalq hüquq praktikasında "Modus Vivendi" adlanan müvəqqəti və praktiki hüquqi mexanizmə əsaslanırdı. "Modus

DOI:10.30546/gdu.5.2025

Vivendi", müqavilə şəklində təsdiq olunmamış, lakin dövlətlərarası əməkdaşlıq və əlaqələrin davamı üçün hüquqi əsas təmin edən razılaşma formasıdır [22, s. 854-857].

Bu razılaşma ilə ABŞ Senatının 18 yanvar 1927-ci il tarixli qərarının praktik təsiri neytrallaşdırıldı və ikitərəfli münasibətlərdə yeni mərhələnin təməli qoyuldu. Tərəflər diplomatik nümayəndəliklərini qarşılıqlı şəkildə təsis etdilər. ABŞ, Ankarada ilk dəfə rəsmi səfirlik səviyyəsində təmsil olunmağa başladı, Türkiyə isə Vaşinqtonda öz diplomatik nümayəndəliyini gücləndirdi.

17 fevral 1927-ci ildə imzalanan "Diplomatik və Konsulluq Əlaqələrinin Qurulması Haqqında Müqavilə", hüquqi ədəbiyyatda "Modus Vivendi" kimi tanınan sənəd, Türkiyə və ABŞ arasında rəsmi münasibətlərin normallaşdırılması istiqamətində atılmış mühüm diplomatik addım hesab edilir. Sazişin imzalanması Vaşinqton və Ankaranın qarşılıqlı siyasi iradəsini əks etdirirdi və iki ölkə arasında 1923-cü ildəki Lozanna müqaviləsinin ratifikasiyasının uğursuzluğundan sonra yaranan diplomatik boşluğu qismən doldurdu [25, s. 95-97].

Razılaşma Türkiyə tərəfdən Xarici İşlər Naziri Tevfik Rüştü Aras, ABŞ tərəfindən isə Admiral Admiral Mark Lambert Bristıl tərəfindən imzalandı [22]. Sazişin hüquqi məzmunu və struktur baxımından dörd əsas maddədən ibarət olması, onu sadə protokol razılaşmasından daha artıq, praktik diplomatik və konsulluq münasibətlərinin hüquqi əsasını təşkil edən sənədə çevirirdi.

Modus Vivendi aşağıdakı əsas sahələri əhatə edirdi:

Rəsmi diplomatik nümayəndəliklərin qarşılıqlı şəkildə təsis olunması - tərəflər səfirlik və konsulluq səviyyəsində nümayəndəliklər qurmağa razılıq verdilər;

1. Ticarət və konsulluq münasibətlərinin təşkili - bu sahədə hüquqi baza yaradıldı və qarşılıqlı güzəştlərin mümkünlüyü qeyd edildi;

2. Məskunlaşma və iqamət hüquqları - vətəndaşların qarşılıqlı şəkildə yaşamaq, işləmək və ticarətlə məşğul olmaq imkanlarını tənzimləyən müddəalar yer aldı;

3. Konsulluq imtiyaz və toxunulmazlıqları - diplomatik missiya və konsulluq personalına veriləcək hüquq və güzəştlər təsbit olundu [25, s. 96].

Göründüyü kimi, 1917-ci ildə Birinci Dünya Müharibəsinin yaratdığı beynəlxalq gərginlik fonunda ABŞ ilə Osmanlı Dövləti arasında diplomatik münasibətlərin kəsilməsi, Türkiyə–ABŞ əlaqələrinin on il müddətində rəsmi səviyyədə dondurulmasına səbəb olmuşdur. Bu uzun fasilə, hər iki dövlətin dəyişən daxili və xarici siyasət konfiqurasiyası baxımından mühüm əhəmiyyət daşıyırdı. Xüsusilə 1923-cü ildə Türkiyə Cümhuriyyətinin elan edilməsindən sonra, yeni formalaşan siyasi rejim ABŞ ilə münasibətlərin yenidən qurulmasında maraqlı idi. Lakin Lozanna Müqaviləsinin ABŞ Senatı tərəfindən ratifikasiya edilməməsi iki ölkə arasında rəsmi diplomatik münasibətlərin qurulmasını ləngitmişdir [22, s. 852-854]. Buna baxmayaraq, 1927-ci ildə diplomatik münasibətlərin yenidən qurulması, iki ölkə arasında qarşıdakı onilliklərdə daha sıx və institusional əməkdaşlığın başlanğıcı kimi qiymətləndirilə bilər. Bu prosesin gerçəkləşməsində Admiral Mark Lambert Bristılın oynadığı rol xüsusilə qeyd olunmalıdır. Bristıl, 1919-cu ildən etibarən ABŞ-ın İstanbuldakı diplomatik nümayəndəsi kimi fəaliyyət göstərmiş və rəsmi səfir statusu daşımasa da, de-fakto səfir funksiyasını icra etmişdir. O, həm ABŞ hökumətinə, həm də ictimaiyyətinə Türkiyədəki siyasi transformasiyanı izah edən, obyektiv məlumatlar təqdim edən əsas fiqurlardan biri olmuşdur [25, s. 42].

1927-ci ilin yanvar ayında ABŞ Senatının Lozanna Müqaviləsini ratifikasiya etməkdən imtina etməsindən sonra, Dövlət Katibi Frank Billinqs Keloq, Bristıl vasitəsilə Türkiyə ilə diplomatik münasibətlərin başqa bir hüquqi çərçivə daxilində bərpa olunması təklifini irəli sürdü. Bu təşəbbüs nəticəsində, 17 fevral 1927-ci ildə "Modus Vivendi" əsasında qarşılıqlı

DOI:10.30546/gdu.5.2025

nota mübadiləsi ilə diplomatik münasibətlər formal şəkildə bərpa olundu. Bu addım, yalnız ikitərəfli münasibətlərin normallaşdırılması deyil, həm də regional stabillik və iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edirdi [26, Fayl, 867.00/126].

Türkiyə ilə ABŞ arasında rəsmi diplomatik münasibətlərin təşəkkül tapdığı dövrdə, ABŞ-ın Türkiyədəki nümayəndəsi Admiral Mark Lambert Bristıl Lozanna Sülh Müqaviləsinin ABŞ Konqresi tərəfindən ratifikasiya olunması üçün aktiv diplomatik fəaliyyət göstərmişdir. Bristıl, Türkiyədəki missiyası dövründə yalnız siyasi deyil, eyni zamanda iqtisadi və mədəni sahələrdə də ABŞ maraqlarının qorunmasına çalışmış, ABŞ Dövlət Departamentini bölgədəki geosiyasi proseslər barədə mütəmadi məlumatlandırmışdır [25, s. 203-205].

Admiral Mark L. Bristıl, 6 fevral 1927-ci il tarixində ABŞ Dövlət Departamentinə göndərdiyi teleqramda, Lozanna Müqaviləsinin Senata yenidən təqdim edilməsinin vacibliyini vurğulamış və bildirmişdi ki, bu addım Türkiyə Böyük Millət Məclisində (TBMM) müqaviləyə qarşı formalaşa biləcək mənfi reaksiyanın qarşısını ala bilər. Admiral Bristol bu mövqeyi ilə, iki ölkə arasında rəsmi diplomatik münasibətlərin qurulmasının siyasi baxımdan nə qədər əhəmiyyətli olduğunu diqqətə çatdırırdı. O qeyd edirdi ki, ABŞ-ın müqaviləni ratifikasiya etməməsi, Türkiyə cəmiyyətində və siyasi dairələrində anti-Amerika əhval-ruhiyyəsinin güclənməsinə gətirib çıxara bilər və bu da ikitərəfli əlaqələrin gələcək inkişafına ciddi zərbə vura bilər [36, Cild III, Sənəd 739].

Admiral Mark L. Bristıl, 2 mart 1927-ci ildə ABŞ Dövlət Departamentinə ünvanladığı teleqramda, Türkiyə hökumətinin Amerika ilə münasibətlərdə müsbət addımlar atmaq niyyətində olduğunu bildirmişdir. Onun məlumatına əsasən, Türkiyə yaxın zamanda daha çox Amerika məktəbinin fəaliyyətinə icazə verməyi, həmçinin dörd amerikalı həkimin ölkədə işləməsinə şərait yaratmağı planlaşdırırdı. Bununla yanaşı, Bristıl, 17 fevral 1927-ci il tarixli nota mübadiləsinin rəsmi nəşrinin gecikməsi səbəbilə Ankaradakı rəsmi dairələrdə narahatlıq və mənfi təəssüratın yarandığını da vurğulamışdır. Bu vəziyyət, münasibətlərin yeni qurulduğu bir vaxtda qarşılıqlı inamın zədələnməməsi üçün həssaslıq tələb edirdi [36, Cild III, Sənəd 747]

Admiral Bristılın səyləri, Türkiyə ilə ABŞ arasında rəsmi münasibətlərin qurulması və bu münasibətlərin sabitləşdirilməsi baxımından əhəmiyyətli olmuşdur. Onun təşəbbüsləri nəticəsində 1927-ci ilin fevralında “Modus Vivendi” imzalanmış, bu sənəd vasitəsilə diplomatik əlaqələrin hüquqi çərçivəsi müəyyən edilmişdir. Bununla belə, Lozanna Müqaviləsinin ABŞ Senatı tərəfindən ratifikasiya olunmaması Bristılın diplomatik fəaliyyətində əsas maneə olaraq qalmaqda idi.

Bu hadisə Türkiyə-ABŞ münasibətlərinin inkişafında müəyyən fasilə yaratmasına baxmayaraq, əlaqələrin davamlılığı və qarşılıqlı etimadın formalaşması istiqamətində digər diplomatik addımlar atıldı. Ümumilikdə, bu dövr Türkiyənin beynəlxalq arenada ABŞ ilə strateji əlaqələr qurmağa başladığı və diplomatik əlaqələrin möhkəmləndirilməsi üçün əsasların qoyulduğu bir mərhələ kimi qiymətləndirilir.

1927-ci ilin may ayında Admiral Bristıl Çin dənizində yerləşən ABŞ Hərbi Dəniz Donanmasının komandanı vəzifəsinə təyin edilmiş və bu səbəblə Türkiyədəki diplomatik missiyasını yarımçıq qoyaraq vətənə dönmüşdür. Bu təyinat, Türkiyə-ABŞ münasibətlərində yeni təşəbbüslərin həyata keçirilməsində yaranan fasiləni şərtləndirmiş, diplomatik prosesin daha ləng inkişafına səbəb olmuşdur [26, s. 12].

ABŞ və Türkiyə rəsmiləri arasında həyata keçirilən yüksək səviyyəli diplomatik səfərlər və dialoqlar ikitərəfli münasibətlərin möhkəmləndirilməsində, eləcə də qarşılıqlı narahatlıq doğuran məsələlərin həllində mühüm rol oynamışdır. Lozanna Müqaviləsinin

DOI:10.30546/gdu.5.2025

imzalanmasından sonra ABŞ-ın Türkiyənin yeni siyasi statusunu tanıması və 1927-ci ildə diplomatik əlaqələrin rəsmi olaraq qurulması ilə Vaşinqton və Ankara arasında yeni mərhələ başlandı. Bu çərçivədə hər iki ölkə paytaxtında səfirliklərin təsis edilməsi, diplomatik münasibətlərə qarşılıqlı sadiqliyin rəmzi olmuşdur.

ABŞ tərəfindən Türkiyədə səfirliyin təsisi yeni Türkiyə Cümhuriyyətinin beynəlxalq hüquq subyekti kimi tanınmasının praktik təsdiqi idi. Bu qərar, həm də ABŞ administrasiyasının, xüsusilə Dövlət Katibi Frank Billinqs Kelloqun təşəbbüsü ilə həyata keçirildi və Prezident Kalvin Kulic tərəfindən dəstəkləndi [25, səh. 198-199]. Dövlət Departamentinin 1927-ci il tarixli daxili yazışmalarında Ankarada diplomatik nümayəndəliyin təsis edilməsinin ABŞ-ın Yaxın Şərqdə iqtisadi və siyasi maraqları baxımından strateji əhəmiyyət daşıdığı açıq şəkildə qeyd olunmuşdur [37, Sənəd 711.67/112].

ABŞ tərəfindən Türkiyəyə ilk səfir kimi təyin edilən Con Griyu, 12 oktyabr 1927-ci ildə Mustafa Kamal Paşaya etimadnaməsini təqdim etmiş və bu vəzifədə olduğu müddətdə (1927-1932) ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynamışdır. O, ABŞ-ın xarici siyasətində təcrübəli diplomat kimi tanınırdı və daha əvvəl İsveç, Danimarka və Yaponiyada da xidmət etmişdi. Con Griyunun təqdim etdiyi hesabatlarda, Türkiyənin modernləşmə siyasəti, hüquq islahatları və iqtisadi inkişaf layihələri ABŞ tərəfindən maraqla izlənmişdir [38, səh. 281-284].

Con Griyunun Ankaradakı fəaliyyəti yalnız diplomatik təmsilçiliklə məhdudlaşmamış, o eyni zamanda ABŞ investorlarının Türkiyəyə yönləndirilməsi, Amerikan ticarət missiyalarının təşviqi və xüsusilə təhsil və səhiyyə sahəsindəki ABŞ təşkilatlarının (xüsusilə Robert College, Near East Relief və s.) fəaliyyəti ilə bağlı əlaqələrin tənzimlənməsində də mühüm rol oynamışdır [39, səh. 153-155]. Con Griyu, öz xatirələrində Türkiyədəki modernləşmə prosesinin Atatürkün rəhbərliyi ilə necə sistemli şəkildə aparıldığını qeyd edərək, ABŞ ictimaiyyətində formalaşan stereotiplərin dəyişməsində də vasitəçi olmuşdur [40, səh. 226-228].

Eyni dövrdə, Türkiyə tərəfindən Vaşinqtonda ilk elçi kimi təyin edilən Ahmet Muhtar Bey (Mollaoğlu) 1927-ci ilin payızında ABŞ-a göndərildi. Onun fəaliyyəti nəticəsində iki ölkə arasında ticarət, konsulluq və mədəniyyət sahələrində yeni razılaşmalar üçün zəmin yarandı [24, səh. 143-145].

1928-ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilən bəzi qərarlarda Türkiyədəki xristian azlıqların vəziyyətinin təkmilləşdiyi, hüquq bərabərliyinin təmin olunduğu və hüquqi sistemin sekulyarlaşdırılması istiqamətində atılan addımların təqdir olunduğu qeyd olunmuşdur. Bu, ABŞ ictimaiyyətindəki və Senatındakı əvvəlki illərdə mövcud olan mənfi təəssüratların yavaş-yavaş dəyişdiyini göstərirdi [41, səh. 59-60].

Bristolun təşəbbüsləri nəticəsində bərpa olunan diplomatik münasibətlər ilk növbədə iqtisadi sahədə fəallaşma ilə müşayiət olunmuşdur. Bu mərhələdə, amerikalı iş adamlarına Türkiyədə sərmayə qoymaq və iqtisadi fəaliyyətlə məşğul olmaq üçün geniş imkanlar yaradılmış, həmçinin fəaliyyətlərinin hüquqi cəhətdən qorunması təmin edilmişdir. Bu addımlar çərçivəsində, iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafı üçün zəruri hüquqi və institusional infrastrukturun formalaşmasına böyük önəm verilmişdir [25, s. 89-92; 26, Sənəd 867.00/126]. Nəticədə, Türkiyə-ABŞ münasibətləri yalnız siyasi və diplomatik sahələrdə deyil, həm də iqtisadi maraqlar baxımından qarşılıqlı fayda prinsiplərinə əsaslanan strateji əməkdaşlıq modelinə çevrilməyə başlamışdır

**3. Ticarət və iqtisadi əlaqələrin qurulması cəhdləri (1923-1932)**

1923-cü ildə Türkiyə Cümhuriyyətinin qurulması və Lozanna Müqaviləsi ilə beynəlxalq tanınmasının təmin olunmasından sonra yeni Ankara hökuməti öz siyasi müstəqilliyini iqtisadi suverenliklə möhkəmləndirmək məqsədilə sistemli xarici iqtisadi siyasət həyata

DOI:10.30546/gdu.5.2025

keçirməyə başlamışdı. Bu siyasətin əsas məqsədi xarici investisiyaların və texnologiyanın ölkəyə cəlb olunması, iqtisadi strukturun modernləşdirilməsi və dövlətin iqtisadiyyatda tənzimləyici rolunun artırılması idi. Bu çərçivədə ABŞ, yüksək texnologiyaya, sənaye potensialına və maliyyə resurslarına malik bir ölkə kimi Türkiyənin diqqətini cəlb edirdi.

Türkiyə-Amerika münasibətləri 1920-ci illərin əvvəllərində rəsmi səviyyədə nizama salınmamışdı. ABŞ, I Dünya Müharibəsindən sonra Osmanlı İmperiyası ilə imzalanmalı olan Sevr müqaviləsini ratifikasiya etməmiş və nəticə etibarilə Türkiyə Cümhuriyyəti ilə də hüquqi baxımdan rəsmi münasibətlər qurulmamışdı. ABŞ Senatı Lozanna Müqaviləsini də ratifikasiya etmədiyi üçün 1920-ci illərdə iki ölkə arasında diplomatik əlaqələr qeyri-formal səviyyədə davam edirdi [42, s. 83]. Bu durum iqtisadi əlaqələrin rəsmi səviyyədə genişlənməsinə maneə yaratsa da, iki ölkə arasında müəyyən ticarət və investisiya təşəbbüsləri həyata keçirilmişdir.

1920-ci illərin ortalarından etibarən ABŞ-da bəzi sənaye və ticarət dairələri Türkiyədəki iqtisadi imkanlara artan maraq göstərməyə başlamışdılar. Birinci Dünya Müharibəsindən sonra yaranmış yeni siyasi konfiqurasiya və Türkiyə Cümhuriyyətinin iqtisadi modernləşmə siyasətləri, xüsusilə infrastruktur və sənaye quruculuğu sahəsində xarici investorlara geniş imkanlar təqdim edirdi. Bu çərçivədə neft, mədən sənayesi və avtomobil sektorunda fəaliyyət göstərən Amerika şirkətləri Türkiyə bazarına daxil olmağa başlamışdılar [43, s. 278].

Ford Motor Company, bu istiqamətdə ən mühüm təşəbbüslərdən biri olaraq, 1928-ci ildə İstanbulda montaj zavodu qurmuşdu. Bu zavodda ABŞ-dan göndərilən avtomobil hissələri yerli işçi qüvvəsi tərəfindən birləşdirilir, daxili bazara təqdim olunurdu [44, Sənəd 030.01/1.0.0.13.16.12; 45, s. 278-279]. Bu təşəbbüs Ford şirkətinin Avropa və Yaxın Şərqdəki strategiyasının bir hissəsi idi və həm sənaye texnologiyasının Türkiyəyə ötürülməsi, həm də Amerika texnoloji nüfuzunun gücləndirilməsi baxımından əhəmiyyət daşıyırdı [42, s. 312].

Bununla yanaşı, General Electric də 1920-ci illərin sonlarına doğru Türkiyədə enerji infrastrukturu ilə bağlı layihələrdə iştirak etmiş, xüsusilə şəhərlərin elektrikləşdirilməsi və dəmir yolu şəbəkələrinin gücləndirilməsi məqsədilə texniki əməkdaşlıq sazişləri imzalamışdı [5, s. 185].

Eyni dövrdə Standard Oil of New Jersey şirkəti Türkiyədə yanacaq distribütoru kimi fəaliyyətə başlamış, xüsusilə İstanbul, İzmir və Mersin kimi liman şəhərlərində satış və anbar şəbəkəsi qurmuşdu. Şirkət, neft məhsulları və texniki yağların idxalı və satışı sahəsində bazarda mühüm rol oynamağa başlamışdı [46, Cild III, s. 25; 47, Sənəd 867.6363/5].

Bu dövrdə Türkiyə iqtisadi siyasətində xarici sərmayəyə və texnologiya transferinə xüsusi önəm verirdi, xüsusən sənayeləşmə və infrastrukturun yenilənməsi sahəsində. Ticarət balansında isə ABŞ-Türkiyə münasibətləri daha çox idxala əsaslanırdı ki, bu da müəyyən zamanlarda iqtisadi narazılıqlara səbəb olurdu. Buna baxmayaraq, iki ölkə ticarətin artırılması və gömrük prosedurlarının sadələşdirilməsi istiqamətində dialoqu davam etdirdi.

Bu şirkətlərin fəaliyyəti yalnız kommersiya məqsədi daşımır, eyni zamanda ABŞ hökumətinin Türkiyədə iqtisadi nüfuzunu artırmaq strategiyasına uyğun gəlirdi. ABŞ-ın Ankaradakı ilk səfiri Cozef Klark Griyu,1929-cu ildə Vaşinqtona göndərdiyi bir məxfi hesabatda qeyd edirdi: “Türkiyə bazarı dinamik inkişaf mərhələsindədir. Lakin fiskal siyasətdəki qeyri-müəyyənlik və xarici valyutanın transferindəki məhdudiyyətlər, Amerika firmaları üçün uzunmüddətli sərmayə baxımından risk yaradır” [38, s. 395].

Ankara hökuməti isə ABŞ-dan texnoloji bilik və kapital gətirmək məqsədilə müxtəlif yollar axtarırdı. 1927-ci ildə qəbul edilən “Teşvik-i Sanayi Kanunu” çərçivəsində ABŞ şirkətlərinə də güzəştli şərtlər təklif edilmiş, müəyyən sahələrdə vergi azadolmaları və torpaq güzəştləri nəzərdə tutulmuşdu [48, s. 154]. Bununla yanaşı, Türk hökuməti ilə Amerika

DOI:10.30546/gdu.5.2025

şirkətləri arasında konkret layihələr üzrə danışıqlar aparılmış, bir neçəsi həyata keçirilsədə, lakin bu danışıqların çoxu institusional çətinliklər və hüquqi qeyri-müəyyənliklər səbəbilə nəticəsiz qalmışdır.

Bu dövrdə münasibətlərin inkişafına təsir edən əsas siyasi amillərdən biri də ABŞ-ın Türkiyə ilə rəsmi bir müqavilə imzalamaqda tərəddüd etməsi idi. Lozanna sonrası dövrdə Amerika hökuməti ilə Türkiyə arasında 6 avqust 1923-cü ildə bir "Dostluq və Ticarət Sazişi" imzalanmış, lakin bu sənəd ABŞ Senatı tərəfindən ratifikasiya olunmamışdı [49, s. 394]. Bu səbəbdən 1930-cu illərin əvvəllərinə qədər iki ölkə arasında hüquqi baza olmadan, sadəcə konsolosluq səviyyəsində əlaqələr davam etmişdi.

1929-cu ildə ABŞ-da başlayan və qısa müddət ərzində bütün dünyaya yayılan Böyük İqtisadi Böhran (Great Depression), qlobal iqtisadi sistemdə kəskin tənəzzüllərə yol açmış və Türkiyə iqtisadiyyatını da ciddi şəkildə sarsıtmışdı. ABŞ-dakı iqtisadi durğunluq nəticəsində xarici ticarət həcmləri azalmış, xammal və kənd təsərrüfatı məhsullarına olan beynəlxalq tələbat kəskin şəkildə düşmüş, bu isə Türkiyənin əsas ixrac məhsullarına - xüsusilə tütün, pambıq, qramofonlıq buğda və xrom kimi mallara olan tələbin azalmasına səbəb olmuşdu [50, s. 203].

Eyni zamanda, idxalın davam etməsi, lakin ixracın zəifləməsi nəticəsində tədiyyə balansında kəskin disbalanslar yaranmışdı. İdxal olunan mallar üçün lazım olan xarici valyutanın əldə olunmasında çətinliklər meydana gəlmiş, bu da valyuta ehtiyatlarının sürətlə tükənməsinə səbəb olmuşdu. Türkiyə dövləti bu yeni vəziyyətə qarşı qoruyucu və müdaxiləçi iqtisadi siyasətlərə keçid etməyə məcbur qalmışdı [51, Fond No: 030, Yer No: 18.1.2/11.33.14; 52, s. 114].

Bu çərçivədə, 1930-cu ildə qəbul edilən iki əsas qanun - "Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı Haqqında Qanunu" ("Türkiye Cumhuriyeti Merkez Bankası Kanunu") və "Türk Pulunun Dəyərini Qoruma Haqqında Qanunu" ("Türk Parasının Kıymetini Koruma Kanunu") - iqtisadi və maliyyə suverenliyinin möhkəmləndirilməsi baxımından əhəmiyyətli dönüş nöqtəsi olmuşdur. "Mərkəzi Bankı Haqqında Qanunu" ilə Türkiyə ilk dəfə olaraq öz milli pul siyasətini müstəqil şəkildə yönəltmək, valyuta emissiyasını nəzarətdə saxlamaq və kredit sistemini mərkəzləşdirmək imkanına qovuşdu [53, Sənəd No: 1930/MB01; 54, s. 68]. Digər tərəfdən, "Mərkəzi Bankı Haqqında Qanunu" valyuta transferlərinə, idxal lisenziyalarına və döviz rejiminə nəzarəti artıraraq, iqtisadi mühitdə dövlətin tənzimləyici rolunu gücləndirdi [55, s. 127].

Bu qanunların qəbulundan sonra ABŞ və digər xarici ölkələrin firmaları ilə əməkdaşlıq daha ciddi fiskal və inzibati prosedurlara tabe tutuldu. Xüsusilə Amerika şirkətləri üçün Türkiyədə fəaliyyət göstərmək daha çətin hala gəldi və dövlətçilik dövrünün başlanğıcı bu şirkətlərin kommersiya strategiyalarına ciddi təsir göstərdi [56, Sənəd 867.00/1930; 57, C. III, s. 233].

1929-cu il Dünya İqtisadi Böhranı həm Türkiyə təsir etdiyi kimi, həm də ABŞ iqtisadiyyatında da dərin təsirlər yaratmış və nəticə etibarilə iki ölkə arasındakı ticarət və iqtisadi münasibətlərin zəifləməsinə səbəb olmuşdur. ABŞ-da daxili bazarın daralması, kapital axınlarının dayanması və proteksionist iqtisadi siyasətlərin güclənməsi fonunda, Türkiyə ilə iqtisadi əməkdaşlıq Vaşinqtonun prioritetlər siyahısında arxa plana keçmişdir. 1930-cu ildə qəbul edilən "Smoot-Hawley Tarif Qanunu" ilə ABŞ hökumətinin idxal məhsullarına yüksək gömrük rüsumları tətbiq etməsi beynəlxalq ticarətin ümumi həcminə mənfi təsir göstərmiş, bu da Türkiyə-ABŞ ticarət əlaqələrini daha da məhdudlaşdırmışdır [58, s. 281]

1930-cu illərin əvvəllərində isə, ABŞ, Böyük Depressiyanın dərin təsirlərini yüngülləşdirmək məqsədilə xarici iqtisadi siyasətini və ticarət diplomatiyasını yenidən

DOI:10.30546/gdu.5.2025

nəzərdən keçirməyə başlamışdı. Daxili tələbatın daraldığı və işsizliyin kəskin artdığı bir mühitdə, ABŞ hökuməti ixracat imkanlarını genişləndirmək üçün yeni və perspektivli bazar axtarışına çıxmışdı. Bu çərçivədə, Rusiya, Latın Amerikası ölkələri və Yaxın Şərqlə yanaşı, Türkiyə də ABŞ-ın diqqətini çəkən ölkələrdən biri olmuşdu [52, s. 51; 59, Fond No: 030, Yer No: 18.1.2/11.33.14.].

Türkiyənin sənayeləşmə strategiyası və dövlətçilik iqtisadi modeli ilə 1930-cu illərdə keçirdiyi struktur dəyişikliklər, onu ABŞ kimi sənaye məhsulları ixrac edən ölkələr üçün potensial ticarət tərəfdaşı halına gətirmişdi. ABŞ Dövlət Departamenti və Ticarət Nazirliyi tərəfindən hazırlanan hesabatlarda, Türkiyənin infrastruktur, enerji, nəqliyyat və istehsal sahələrindəki modernləşmə ehtiyacları açıq şəkildə qeyd edilir və bu ehtiyacların Amerika malları və texnologiyası ilə qarşılanmasının mümkünlüyü vurğulanırdı [60, s. 293].

Eyni zamanda, Türkiyə də öz sənaye və iqtisadi inkişaf planlarını həyata keçirmək üçün xarici texnologiya və kapital axtarışında idi. Bu səbəbdən, 1930-cu illərin əvvəllərində hər iki ölkənin maraqları müəyyən nöqtələrdə üst-üstə düşmüş, lakin ticarət balanssızlığı, valyuta məhdudiyyətləri və proteksionist siyasətlər səbəbilə bu potensial reallaşmaqda çətinlik çəkmişdi [50, s. 177].

1930–1932-ci illərdə, dünya iqtisadi böhranının yaratdığı çətinliklərə baxmayaraq, ABŞ və Türkiyə arasında diplomatik və iqtisadi münasibətləri yaxşılaşdırmaq məqsədilə müxtəlif səviyyələrdə danışıqlar aparılmışdı. Hər iki tərəf, mövcud ticarət həcmini genişləndirmək, investisiya imkanlarını qiymətləndirmək və texniki əməkdaşlıq sahəsində irəliləyiş əldə etmək üçün təşəbbüslər göstərirdi. Bu dövrdə, Vaşinqtondan Ankaraya və əks istiqamətdə rəsmi və qeyri-rəsmi nümayəndə heyətləri göndərilmiş, qarşılıqlı iqtisadi imkanların araşdırılması məqsədilə səfirliklər və ticarət attaşeləri vasitəsilə intensiv yazışmalar aparılmışdı [42, s. 118; 61, Fond No: 030, Yer No: 18.01.02/14.25.18.].

Türkiyə hökuməti bu danışıqlar çərçivəsində ABŞ-ın texniki bilik və kapitalından istifadə edərək bəzi sahələrdə modernləşmə proqramlarını həyata keçirməyi planlaşdırırdı. Xüsusilə elektrik enerjisi istehsalı, şəhər elektrikləşməsi, dəmir yollarının elektrikləşdirilməsi və sənaye müəssisələrinin modernizasiyası kimi sahələr prioritet istiqamətlər olaraq müəyyən edilmişdi. Bu kontekstdə, 1931-ci ildə General Electric şirkətinin mühəndis və menecerlərindən ibarət nümayəndə heyəti Türk Elektrik İdaresi ilə görüşlər keçirmiş, Ankara, İstanbul və İzmit bölgələrində elektrik infrastrukturu layihələri üzərində ilkin müzakirələr aparılmışdı [42, s. 118; 61, Fond No: 030, Yer No: 18.01.02/14.25.18.; 62, Qutu 7, Sənəd 204].

Lakin bu layihələrin çoxu hüquqi və inzibati əsasların kifayət qədər formalaşmaması, xüsusilə xarici sərmayələrin hüquqlarını qoruyan müvafiq qanunların olmaması, valyuta məhdudiyyətləri və kapitalın repatriasiyası üzərindəki nəzarət səbəbilə nəticəsiz qalmışdı. ABŞ şirkətləri vergi rejimi, dövlət tenderlərində şəffaflıq və döviz transferinə dair qarantiyaların olmamasından narazılıq ifadə edirdilər. Bu dövrdə ABŞ-ın Ankaradakı səfiri Cozef Klark Griyu, Dövlət Departamentinə göndərdiyi məxfi bir məlumatda qeyd edirdi ki, “Türkiyə xarici investisiyalar üçün hələ də qeyri-müəyyən və riskli bir mühit təklif edir” [63,Sənəd, 867.00/1931; 64, Cild III, s. 418].

Bütün bu çətinliklərə baxmayaraq, ABŞ tərəfi Türkiyə ilə iqtisadi münasibətləri tamamilə kəsmədi. Əksinə, bu danışıqlar ABŞ-ın regionda artan strateji maraqlarını da əks etdirirdi. Dövlət Departamenti 1932-ci ilin ortalarında Türkiyənin enerji və infrastruktur ehtiyaclarının ABŞ üçün strateji iqtisadi fürsət ola biləcəyini vurğulayan bir daxili memorandum hazırlamışdı [65, s. 94].

Digər tərəfdən, ABŞ-ın Ankaradakı səfirliyi tərəfindən 1931-ci ildə Vaşinqtona təqdim edilən məxfi memorandumlardan birində, Türkiyənin sənayeləşmə təşəbbüsləri müsbət

DOI:10.30546/gdu.5.2025

qarşılanmış, bu prosesin regional sabitlik və iqtisadi inkişaf baxımından strateji əhəmiyyət daşıdığı qeyd edilmişdi. Memorandumda vurğulanırdı ki, Türkiyə hökumətinin sistemli şəkildə planlaşdırdığı sənayeləşmə və modernləşmə proqramları, xüsusilə enerji, nəqliyyat və infrastruktur sahələrində geniş xarici əməkdaşlığa ehtiyac duyur və bu ehtiyacların Amerika kapitalı və texnologiyası ilə qarşılanması, həm ABŞ iqtisadi maraqlarına, həm də geosiyasi hədəflərinə xidmət edə bilər [1, s. 77; 66, Fond No: 030, Yer No: 18.01.02/13.24.10.].

ABŞ hökuməti, Avropada artmaqda olan siyasi qeyri-sabitliyi, xüsusilə Almaniyada nasistlərin yüksəlişi və İtaliyada faşist rejimin aqressiv xarici siyasətini diqqətlə izləyir, Aralıq dənizinin şərqində yerləşən və siyasi sabitlik nümayiş etdirən Türkiyə ilə daha sıx əlaqələrin qurulmasını regional təhlükəsizlik və iqtisadi maraqlar baxımından mühüm sayırdı. ABŞ Dövlət Departamentinin 1931-ci ilin noyabrında hazırladığı daxili qiymətləndirmədə, "Türkiyə yalnız geostrateji mövqeyinə görə deyil, həm də özünün müasir dövlət quruculuğu və iqtisadi inkişaf hədəfləri ilə ABŞ-ın dəyərlərinə yaxınlaşan nadir ölkələrdən biridir" ifadəsinə yer verilmişdi [67, Qutu 92, s. 219].

Bu çərçivədə, ABŞ-Türkiyə iqtisadi əməkdaşlığı yalnız ticarət həcmi ilə deyil, həm də regionda Amerikanın nüfuzunun genişlənməsi baxımından da əhəmiyyət kəsb edirdi. ABŞ-ın Ankaradakı səfiri Cozef Klark Griyu, bu dövrdə göndərdiyi hesabatlarda Türkiyənin sabit, dünyəvi və modernləşməyə açıq xarici siyasət kursunun, ABŞ üçün etibarlı bir regional tərəfdaş olma potensialını göstərdiyini dəfələrlə vurğulamışdı [68, s. 404].

1929-1932-ci illər arasında ABŞ ilə Türkiyə arasındakı ticarət həcmi ciddi dalğalanma göstərmişdir. 1929-cu ildə ikitərəfli ticarət həcmi təxminən 10 milyon dollar səviyyəsində olmuş, lakin qlobal iqtisadi böhranın təsiri ilə 1931-ci ildə bu rəqəm 6.5 milyon dollara qədər azalmışdı [69, s. 246]. Bu müddət ərzində ABŞ-dan Türkiyəyə idxal olunan əsas məhsullar arasında avtomobillər, maşın avadanlıqları, elektrik cihazları və sənaye kimyəvi maddələri yer alırdı. İxracat istiqamətində isə Türkiyə, ABŞ bazarına xrom filizi, tütün və quru meyvələr göndərirdi.

Türkiyə üçün xüsusilə xrom filizinin ixracı strateji əhəmiyyət daşıyırdı, çünki xrom sənaye istehsalında kritik elementlərdən biri olmaqla yanaşı, ABŞ metallurgiya və polad sənayesi üçün mühüm resurs hesab edilirdi [70, Sənəd 867.00/1930. s. 39]. Bu xüsusiyyət, ABŞ ilə Türkiyə arasındakı ticarətdə xromun rolunu sadəcə iqtisadi deyil, həm də strateji bir amil kimi önə çıxarırdı. Əlavə olaraq, tütün və quru meyvələr kimi kənd təsərrüfatı məhsulları Türkiyənin xarici ticarət balansında əhəmiyyətli yer tuturdu və bu məhsulların ixracı yerli iqtisadiyyat üçün dövriyyə və gəlir mənbəyi idi [71, s. 182].

Bununla belə, iqtisadi böhran dövründə ticarət həcminin azalması və idxal-ixrac balansındakı qeyri-mütənasibliyin yaratdığı gərginliklər Türkiyə hökumətini daha müdaxiləçi iqtisadi siyasət tətbiq etməyə, xüsusilə valyuta məhdudiyyətləri və idxal nəzarətləri kimi qoruyucu tədbirlərə yönəltmişdi [72, s. 310].

Bu dövrdə, xüsusilə tətbiq olunmağa başlayan müdaxiləçi iqtisadi siyasət çərçivəsində, Türkiyə hökuməti bir sıra strateji sahələrdə dövlət nəzarətini gücləndirməyə, iqtisadi suverenliyi qorumağa və yerli sənaye müəssisələrini təşviq etməyə başlamışdı. 1930-cu ildən sonra qəbul edilən "Türk Pulunun Dəyərini Qoruma Haqqında Qanunu", "Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı Haqqında Qanun" və milli sənaye müdafiəsi qanunvericiliyi, xarici firmaların sərbəst fəaliyyət sahələrini tədricən məhdudlaşdırırdı [72, s. 310].

Bu şəraitdə, ABŞ-ın bəzi şirkətləri - xüsusilə ticarət və yüngül sənaye sahəsində çalışan firmalar - Türkiyədəki fəaliyyətlərini ya dayandırmaq, ya da yerli ortaq taparaq ortaqlıq modelinə keçmək məcburiyyətində qalmışdılar. Bu məhdudiyyətlərdən biri də avtomobil sənayesində özünü göstərmişdi. Ford Motor Company, 1928-ci ildə İstanbulda qurduğu montaj zavodu vasitəsilə Türkiyə bazarına daxil olmuşdu. Lakin dövlətin yerli montaj

DOI:10.30546/gdu.5.2025

sənayesinə texniki lisenziya və idxal məhdudiyyətləri qoyması, vergi üstünlüklərini milli istehsalçılara yönəltməsi, eləcə də artan yerli texniki nəzarət tələbləri nəticəsində Ford-un montaj fəaliyyəti 1932-ci ildən etibarən əvvəlcə zəifləməyə, sonra isə yalnız distribütor şəbəkəsi vasitəsilə bazarda qalmağa yönəlmişdi [71, s. 291].

Bu dəyişiklik təkcə Ford ilə məhdudlaşmamış, eyni zamanda General Motors, General Electric kimi şirkətlərin də fəaliyyət modellərini yenidən qiymətləndirmələrinə səbəb olmuşdu. General Electric, 1930-1931-ci illərdə Türkiyə ilə elektrik enerjisi layihələri üzrə əməkdaşlıq aparsa da, hüquqi zəmanətlərin zəifliyi və dövlətin getdikcə artan tənzimləmələri səbəbilə uzunmüddətli sərmayə planlarını ertələmək məcburiyyətində qalmışdı [73, Sənəd 867.00/1931, s. 228].

1930-1932-ci illərdə həm Türkiyə, həm də ABŞ tərəfi əvvəlki illərdəki qeyri-rəsmi əlaqələri hüquqi-institusional çərçivəyə salmaq üçün diplomatik danışıqlar aparmağa başlamışdılar. ABŞ hökuməti Lozanna sonrası razılaşmaların ratifikasiyası məsələsində yumşalma əlamətləri göstərməyə başlamış, Türkiyə isə ticarət razılaşmasının yenilənməsi və Amerika bazarına çıxış imkanlarının artırılması üçün xüsusi nümayəndə heyəti göndərmişdi. Bu səylər nəticəsində 1933-1938-ci illərdə diplomatik münasibətlərdə və iqtisadi əməkdaşlıqda yeni bir mərhələ başlayacaqdı ki, bu da 1939-cu il Ticarət Sazişi ilə nəticələnmişdi [54, s. 168].

**Nəticə**

1923-1932-ci illər arası dövr, Türkiyə ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlərin təşəkkül tapmağa başladığı, lakin hələ institusional və hüquqi cəhətdən tam formalaşmadığı bir mərhələ kimi xarakterizə oluna bilər. Lozanna Müqaviləsi ilə beynəlxalq legitimlik qazanan Türkiyə Cümhuriyyəti, yeni xarici siyasət istiqamətində ABŞ ilə həm siyasi, həm də iqtisadi əlaqələri inkişaf etdirmək niyyətində idi. Bu məqsədlə, ABŞ-dakı diplomatik nümayəndəlik səviyyəsinin səfirlik statusuna yüksəldilməsi, Amerikan şirkətlərinin Türkiyədəki fəaliyyətinə imkan yaradılması və ticarət balansını Türkiyənin xeyrinə tənzimləməyə yönələn siyasətlər həyata keçirilmişdir.

Bununla yanaşı, ABŞ tərəfindən Lozanna Konfransında imzalanan ikitərəfli sazişin ratifikasiya olunmaması və Amerika ictimaiyyətindəki erməni lobbisinin təzyiqləri, münasibətlərin hüquqi əsas üzərində qurulmasına mane olmuşdur. Buna baxmayaraq, 1920-ci illərin sonlarına doğru qarşılıqlı maraqlar əsasında əlaqələr tədricən inkişaf etməyə başlamış, xüsusilə ABŞ-ın Türkiyəyə texnoloji və maliyyə dəstəyi verməyə maraq göstərməsi və Türk hökumətinin sənayeləşmə yönümlü iqtisadi planlar çərçivəsində bu dəstəyi dəyərləndirmək istəyi, qarşılıqlı əməkdaşlıq imkanlarını artırmışdır.

1929 dünya iqtisadi böhranı və onun yaratdığı qlobal təsirlər, hər iki dövləti daha real və ehtiyatlı iqtisadi siyasətlərə yönəltmişdir. Türkiyənin iqtisadi suverenliyi möhkəmləndirmək üçün atdığı addımlar, ABŞ ilə münasibətləri həm yaxınlaşdırmış, həm də bəzi hallarda çətinləşdirmişdir. Bu dövrdə ticarət həcminin dalğalanması, müəyyən Amerikan şirkətlərinin Türkiyədən çəkilməsi və hüquqi-institusional çərçivənin olmaması əlaqələrin sabit və davamlı inkişafına əngəl yaratmışdır.

Bununla belə, 1930-1932-ci illərdə diplomatik kanallarda baş verən müsbət dəyişikliklər, Türkiyənin xarici iqtisadi siyasətində ABŞ-a xüsusi yer ayırmağa davam etməsi və Amerikanın da Türkiyədəki sabitliyi qiymətləndirməsi, 1930-cu illərin ortalarından etibarən yeni bir mərhələnin əsasını qoymuşdur. Bu mərhələnin kulminasiya nöqtəsi 1939-cu ildə imzalanan ticarət sazişi olmuşdur.

Nəticə etibarilə, 1923-1932-ci illər Türkiyə-ABŞ münasibətləri, ilkin qarşılıqlı tanıma və ehtiyatlı iqtisadi-siyasi yaxınlaşma dövrü olmaqla, daha sonrakı strateji əməkdaşlıqlar üçün zəmin hazırlamışdır. Bu dövr həm də Türkiyənin xarici siyasətində balanslı yanaşma

DOI:10.30546/gdu.5.2025

strategiyasının və iqtisadi suverenlik axtarışının mühüm bir göstəricisi kimi qiymətləndirilə bilər.

***Ədəbiyyat***

1. Oran, B. (2001). Türk dış politikası: Kurtuluş Savaşı'ndan bugüne 1919-1980 (Cilt 1). İstanbul: İletişim Yayınları.
2. Soysal, İ. (1989). Türkiye'nin siyasal andlaşmaları: 1920-1945 (Cilt I). Ankara: Türk Tarih Kurumu Yayınları.
3. U.S. Department of State. (1929). Foreign Relations of the United States (FRUS), 1929, Volume II. Washington, D.C.: Government Printing Office, p. 800.
4. U.S. Department of State. (1938). Foreign Relations of the United States (FRUS), 1938, Volume I. Washington, D.C.: Government Printing Office, P. 1250.
5. Zürcher, E. J. (2004). Turkey: A Modern History. I.B. Tauris. (Pp. 134-138)
6. Mango, A. (2002). Atatürk: The Biography of the Founder of Modern Turkey. Overlook Press.
7. U.S. Department of State, Office of the Historian. (2020). Foreign Relations of the United States (FRUS), 1923-1933, Volume I. Government Printing Office. (Pp. 523-526)
8. McCarthy, J. (1995). The Soviet Union and the Middle East: The Early Years. Routledge.
9. Hale, W. (2013). Turkish Foreign Policy, 1919-1938. Routledge.
10. Olson, R. W. (1989). The Emergence of Kurdish Nationalism and the Soviet-Turkish Relations. University of Texas Press.
11. Halaçoğlu, Y. (1991). Atatürk'ün Dış Politikası. Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Yayınları.
12. Karpat, K. H. (2010). Turkey's Foreign Policy in Transition. Brill Academic Publishers.
13. Ahmad, F. (1993). The Making of Modern Turkey. Routledge
14. U.S. National Archives and Records Administration (NARA), Record Group 59, "Turkey: Diplomatic Relations with the United States, 1923-1938," Department of State Records, 1925, Document No. 320-25.
15. Howard, H. N. (1937). "The American Policy towards Turkey," Foreign Affairs, 15(4), s. 611–620.
16. Hanioğlu, Ş. (2011). Atatürk and the Modernization of Turkey. I.B. Tauris, s. 205-210.
17. Sezer, D. B. (1999). Cumhuriyet Dönemi Türk Dış Politikası (1923-1939), Türk Tarih Kurumu Yayınları.
18. Hale, W. (2000). Turkish Foreign Policy 1774-2000. Frank Cass.
19. Kuniholm, B. R. (1980). The Origins of the Cold War in the Near East: Great Power Conflict and Diplomacy in Iran, Turkey, and Greece. Princeton University Press.
20. U.S. National Archives and Records Administration (NARA), Record Group 59, "Reports from the Embassy in Ankara," 1935-1937, Box 15, Folder 4.
21. U.S. National Archives and Records Administration (NARA), Record Group 59, "Correspondence with U.S. Embassy in Ankara," 1929, Box 12, Folder 6.
22. U.S. Department of State. (1942). Papers Relating to the Foreign Relations of the United States (FRUS), 1927. Washington: U.S. Government Printing Office, Pp. 852-854.
23. Sander, O. (1979). Türk-Amerikan İlişkileri (1947-1964). Ankara: Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Yayınları.
24. Armaoğlu, F. (1997). 20. Yüzyıl Siyasi Tarihi (1914-1995). İstanbul: Alkım Yayınları.
25. Şimşir, B. N. (1981). Türk-Amerikan İlişkileri 1783-1980. Ankara: Türk Tarih Kurumu Yayınları.

DOI:10.30546/gdu.5.2025

26. U.S. National Archives and Records Administration (NARA), 1927, Record Group 59, Central Decimal File, 867.00/126.
27. U.S. Department of State. (1942). Papers Relating to the Foreign Relations of the United States (FRUS), 1923-1927. Washington: U.S. Government Printing Office, Pp. 98-100.
28. U.S. Department of State. (1942). Papers Relating to the Foreign Relations of the United States (FRUS), 1923. Washington: U.S. Government Printing Office, Pp. 45-47.
29. Morgenthau, H. (1918). Ambassador Morgenthau's Story. New York: Doubleday, Page & Company.
30. Atay, F. R. (1998). Çankaya. İstanbul: Pozitif Yayınları.
31. U.S. Senate. (1927). Congressional Record, 69th Congress, 2nd Session, Debates on the Treaty with Turkey.
32. T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri, Cumhuriyet Arşivi (BCA), Fon Kodu: 030.10.0.0/72.401.6, "Amerikan okullarının kapatılması ve dini misyonların faaliyetleri," 1926.
33. T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri, Cumhuriyet Arşivi, (BCA), Fon kodu: 030.10.0.0/72.401.2, "Amerika ile ilişkiler ve Lozan sonrası gelişmeler," 1924-1927.
34. Ağaoğlu, A. (1928). "The Armenian Question and American Morality." Yenigün Qəzeti Arxivi, Azərbaycan Milli Kitabxanası, Fond №127,p. 53.
35. U.S. National Archives and Records Administration (NARA), Record Group 59, Central Decimal File, 867.00/145, "Public reactions to Turkish press counter-statements, 1928."
36. U.S. National Archives, Foreign Relations of the United States (FRUS), 1927, Volume III, Document 739: Admiral Mark L. Bristol to the Secretary of State, February 6, 1927.
37. U.S. National Archives and Records Administration (NARA), Record Group 59, Decimal File 711.67/112, Confidential Correspondence Relating to Turkey, 1927.
38. Josef, C. Grew. (1952). Turbulent Era: A Diplomatic Record of Forty Years, 1904-1945. Boston: Houghton Mifflin Company.
39. Near East Relief Reports, 1927-1930. Columbia University, Rare Book & Manuscript Library.
40. Grew, J. (1936). Ten Years in Japan. New York: Simon & Schuster.
41. U.S. Senate Committee on Foreign Relations, Hearings on the Situation of Minorities in Turkey, 1928. Congressional Record.
42. Aydemir, Ş. S. (1999). İkinci Adam: Cilt I. İstanbul: Remzi Kitabevi.
43. Yergin, D. (1991). The Prize: The Epic Quest for Oil, Money, and Power. New York: Simon & Schuster.
44. T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri Başkanlığı, Cumhuriyet Arşivi (BCA), Fon No: 030, Yer No: 01/1.0.0.13.16.12.
45. Metinsoy, M. (2010). Cumhuriyet Dönemi Türkiye'sinde Sanayileşme Politikaları ve Otomotiv Sektörü. İstanbul: İletişim Yayınları.
46. U.S. National Archives, Foreign Relations of the United States (FRUS),1929, Vol. III, p. 25.
47 U.S. National Archives and Records Administration (NARA), Record Group 59, Decimal File 867.6363/5.
48. Pamuk, Ş. (2007). Türkiye'nin 200 Yıllık İktisadi Tarihi. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.
49. Kinross, P. (1964). Atatürk: The Rebirth of a Nation. London: Weidenfeld & Nicolson.
50. Pamuk, Ş. (2005). Osmanlı'dan Cumhuriyet'e Küreselleşme, İktisat Politikaları ve Büyüme. İstanbul: Türkiye İş Bankası Yayınları.

DOI:10.30546/gdu.5.2025

51. T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri Başkanlığı, Cumhuriyet Arşivi (BCA), Fon No: 030, Yer No: 18.1.2/11.33.14
52. Keyder, Ç. (1981). The Definition of a Peripheral Economy: Turkey 1923-1929. Cambridge: Cambridge University Press.
53. T.C. Türkiye Cumhuriyet Merkez Bankası Arşivi, Türkiye Cumhuriyet Merkez Bankası Kuruluş Belgeleri, Dosya No: 1930/MB01
54. Akyüz, Y. (1988). 1980 Öncesi Türkiye Ekonomisinde Para Politikası ve Merkez Bankası. Ankara: TODAİE Yayınları.
55. Korkmaz, A. (1997). Türk Parası Kıymetini Koruma Hakkında Kanun'un Ekonomik Etkileri. Ankara: Maliye Dergisi, sayı 131, s. 127.
56. U.S. National Archives and Records Administration (NARA), Record Group 59, Decimal File 867.00/1930
57. U.S. Department of State, Foreign Relations of the United States (FRUS), 1930, Vol. III, p. 233.
58. Kindleberger, Ch. P. (1986). The World in Depression 1929-1939, Berkeley: University of California Press.
59. T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri Başkanlığı, Cumhuriyet Arşivi (BCA), Fon No: 030, Yer No: 18.1.2/11.33.14.
60. U.S. Department of Commerce, Survey of Foreign Markets: Turkey, Washington D.C., 1932.
61. T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri Başkanlığı, Cumhuriyet Arşivi (BCA), Fon No: 030, Yer No: 18.01.02/14.25.18.
62. General Electric Company Archives, "Turkey File: Negotiations with Turkish Electrical Administration, 1931", Schenectady, NY, Box 7, Doc. 204.
63. U.S. National Archives and Records Administration (NARA), Record Group 59, Decimal Files 867.00/1931, "Confidential Dispatch by J.C. Grew".
64, U.S. Foreign Relations of the United States (FRUS), 1931, Vol. III, s. 418.
65. U.S. Department of State, Internal Memorandum, "Opportunities for American Industry in Turkey", Washington D.C., July 1932.
66. T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri Başkanlığı, Cumhuriyet Arşivi (BCA), Fon No: 030, Yer No: 18.01.02/13.24.10.
67. U.S. Department of State, Political Assessment on Near East Affairs, Internal Memorandum, November 1931, U.S. National Archives and Records Administration (NARA), Record Group 59, Box 92, p. 219.
68. U. S. Department of State, Foreign Relations of the United States, 1931, Vol. III, "Dispatch from Ambassador Grew to Secretary of State," Washington D.C.: U.S. Government Printing Office, 1931, p. 404.
69. T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri Başkanlığı, Cumhuriyet Arşivi (BCA), Ticaret Bakanlığı Dosyası, 1929-1932.
70. U.S. National Archives and Records Administration (NARA), Record Group 59: General Records of the Department of State, Decimal File 867.00/1930, Trade Reports on Turkey, p. 39.
71. Özdemir, H. (1984). Türkiye'nin Dış Ticareti 1923-1938. Ankara: Ankara Üniversitesi Yayınları.
72. T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri Başkanlığı, Cumhuriyet Arşivi (BCA), Ekonomi Bakanlığı Dosyası, 1930-1932, s. 310.

DOI:10.30546/gdu.5.2025

73. U.S. National Archives and Records Administration (NARA), Record Group 59, Decimal File 867.00/1931, "Electric Development Projects in Turkey - General Electric Reports", p. 228.
74. Deringil, S. (1991). "Turkish-American Relations in Historical Perspective." Turkish Review of Middle East Studies, V. 5, p. 168.

## TURKEY AND THE UNITED STATES: THE ESTABLISHMENT OF BILATERAL RELATIONS BETWEEN 1923 AND 1932

***Ismayilov Ismayil Akif oglu***

***Summary***

This article explores the process of forming bilateral relations between the Republic of Turkey and the United States of America during the period from 1923 to 1932. At a time when Turkey had achieved its independence and was formulating new foreign policy strategies, developing diplomatic and economic ties with the United States became particularly significant. The article analyzes how Atatürk's foreign policy principles influenced relations with the United States, alongside the challenges and achievements experienced in trade and diplomatic interactions between the two countries. Furthermore, it assesses the impact of the international political context of the era and the United States' global policies on Turkey–U.S. relations. The study highlights that these early-stage relations established a foundation for future strategic cooperation.

## ТУРЦИЯ И СОЕДИНЁННЫЕ ШТАТЫ АМЕРИКИ: УСТАНОВЛЕНИЕ ДВУСТОРОННИХ ОТНОШЕНИЙ В 1923–1932 ГОДАХ

***Исмаилов Исмаил Акиф оглы***

***Резюме***

В данной статье рассматривается процесс формирования двусторонних отношений между Республикой Турция и Соединёнными Штатами Америки в период с 1923 по 1932 год. В то время как Турция добилась независимости и формировала новые стратегии внешней политики, развитие дипломатических и экономических связей с США приобрело особое значение. В статье анализируется, каким образом принципы внешней политики Ататюрка повлияли на отношения с Соединёнными Штатами, а также рассматриваются трудности и достижения в торгово-дипломатических взаимодействиях между двумя странами. Кроме того, оценивается влияние международной политической обстановки того времени и глобальной политики США на турецко-американские отношения. Исследование подчеркивает, что эти ранние этапы отношений заложили основу для будущего стратегического сотрудничества.

***Rəyçi:dosent Musayev Etibar***
***Daxil olma tarixi 24 sentyabr 2025-ci il***